CƏLAL ƏLİYEV
BUDAQ BUDAQOV

# TÜRKLƏR, AZƏRBAYCANLILAR, ERMƏNİLƏR: TARİXİ HƏQİQƏTİN SOYQIRIMI

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI

AZƏRBAYCAN NƏŞRİYYATI
BAKI—2003

S 20(03)

**CƏLAL ƏLİRZA oğlu ƏLİYEV** — dünya şöhrətli alim: bioloq, seleksiyaçı, genetik. 400-ə qədər elmi əsərin müəllifidir. Bir çox elit buğda sortunun yaradıcısıdır. "Azərbaycanın genetik ehtiyatları" respublika proqramının rəhbəridir. Azərbaycan Milli Elmlər Akademiyasının akademikidir. Respublikanın ictimai-siyasi xadimidir. Milli Məclisin üzvüdür. Azərbaycan Respublikasının Prezidenti **HEYDƏR ƏLİYEVİN** qardaşı və silahdaşıdır.

**BUDAQ ƏBDÜLƏLİ oğlu BUDAQOV** — Azərbaycan Milli Elmlər Akademiyasının akademikidir. Coğrafiya elmləri doktoru, professordur. Yüzlərlə elmi əsərin və onlarca monoqrafiyanın müəllifidir.

Redaktoru **Roza Kərimova**

**Cəlal Əliyev, Budaq Budaqov**
S 20(03) Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqırımı. — Bakı, "Azərbaycan" nəşriyyatı, 2003. — 72s.

Ə $\frac{0503000000 - 020(03)}{M670(07) - 2003}$ Sifarişlə

© Əliyev C.Ə., Budaqov B.Ə. , 2003.

# I

2001-ci il yanvarın 29-da Fransa prezidenti Jak Şirak ölkə parlamentinin "Osmanlı imperiyasında 1915-ci il erməni soyqırımı haqqında" 18 yanvar tarixli qətnaməsini təsdiq etdi. Bu hadisə Türkiyə hökuməti və ictimaiyyətinin, o cümlədən Türkiyə ermənilərinin dini başçısı II Mesropun da haqlı etirazına səbəb oldu. Patriarx 1915-ci ildə Türkiyə ermənilərinə qarşı soyqırımı iddiasını, yəni onların kütləvi şəkildə, qəsdən qətlə yetirilməsi "faktını" qətiyyətlə təkzib etdi. Amma artıq iş-işdən keçmişdi. Bəzi siyasi liderlərin və parlament xadimlərinin simasında Fransa özünün NATO üzrə müttəfiqinin, Şərqi Avropanın iri dövləti olan Türkiyə ilə münasibətlərinin kəskinləşməsinə rəvac verdi. Məlum olduğu kimi, fransızların bu əməli Türkiyədə qəzəbli etiraz dalğalarının kükrəməsinə səbəb oldu. Dərhal fransız şirkətlərinə qarşı iqtisadi sanksiyalar tətbiq edildi. Sual olunur: bu qərəzli siyasi addımdan fransız xalqı nə qazandı? Birmənalı olaraq həm iqtisadi, həm də mənəvi baxımdan uduzdu.

Məlumdur ki, ABŞ-da, İngiltərədə, Almaniyada və Yer kürəsinin bir çox ölkələrində olduğu kimi, Fransanın da ictimai həyatında ermənilər, erməni burjua elitası və erməni diasporları mühüm rol oynayırlar. Burada yüzlərlə erməni birliyi, komitəsi və cəmiyyəti fəaliyyət göstərir. Elə təsəvvür yaranır ki, həm bütün dünyaya səpələnmiş erməni diasporlarının millətçi nümayəndələri, həm Rusiya — MDB erməni diasporlarının fəalları, həm də Ermənistandakı erməni siyasi liderlərindən ötrü Osmanlı imperiyasında ermənilərin 1915-ci il "soyqırımı" barədə mif bu gün bir sıra konkret məsələlərin həyata keçirilməsi üçün vasitədir.

Millətçilik enerjisi və inadkarlıq hər bir xalqın tarixində müsbət rol oynamağa qadirdir, amma bir şərtlə ki, bu

enerji xeyirxah məqsədə yönəldilsin və başqa xalqların maraqlarına xələl gətirməsin. Elə millətlər var ki, bu enerji onlara çox vacibdir: xüsusilə də, millət müəyyən tarixi şəraitdən asılı olaraq başqa xalqlar tərəfindən "Ubi bene Ibi ratriya" ("Günüm xoş keçən yer vətəndir") anlamında anadangəlmə kosmopolitizm meylləri kimi genetik-mental xüsusiyyətlərlə mürəkkəbləşən assimilyasiya ilə üzbəüz qalanda millətçilik enerjisi zəruri olur.

Cənablar! Nəzərinizə çatdırırıq ki, hər hansı bir ölkədə soyqırımının törədilməsini müzakirəyə qoymaq, onu psevdoyolla "sübuta" yetirərək hökm çıxarmaq hər hansı bir ölkə başçısının və ya parlamentin işi deyildir. Bu, alimlərin, o cümlədən tarixçilərin, hüquqşünasların və digər əlaqədar mütəxəssislərin vəzifəsidir.

Bir əsrə yaxın dövrün (1915) tarixi faktlarına istinadən qətiyyətlə bildiririk ki, soyqırımı törətmiş ermənilərə bəraət qazandırmaq, günahsız türkləri təqsirkar saymaq, hətta bununla bağlı hökm çıxarmağın özü də yeni bir tarixi cinayətdir. Əfsuslar olsun ki, bu cinayətə qoşulan başqa dövlətlər də vardır.

Cənablar! Bir daha vurğulayırıq ki, siyasətdə soyqırımı problemi ilə bağlı səhvə yol verməyin özü də nə vaxtsa bu soyqırımını törətmişlərin əməllərinə bərabərdir.

Azərbaycan xalqı fransızlara, Fransa mədəniyyətinə böyük rəğbətlə yanaşır. Biz bu ölkə ilə hərtərəfli əlaqələrin inkişafında maraqlıyıq, onunla dostluq etmək istəyirik, onun prezidenti Jak Şirakı ciddi siyasətçi sayırıq. Buna görə də onun və Fransa parlamenti üzvlərinin buraxdıqları siyasi və mənəvi səhv bizdə böyük təəssüf doğurur.

Xatırladaq ki, soyqırımın — tarixi həqiqətlərin aşkarlanması və hüquqi əsaslarla sübut edilməsi məsələsi ilə dövlət xadimləri və ya məmurlar deyil, tarixçi alimlər və digər müvafiq ixtisasçılar məşğul olmalıdır.



Xalqımız türklərlə də, ermənilərlə də yaxın qonşudur və ona görə də biz 1915-ci ildə Osmanlı imperiyasında törədilmiş "erməni soyqırımı" məsələsinə münasibət bildirməyi özümüzə borc sayırıq. Bunu yalnız dünya xalqlarına tarixi həqiqətləri çatdırmaq və hər kəsə erməni millətçi təşkilatlarının məkrli planlarını aydın şəkildə açıqlamaq məqsədilə edirik. Bu gün millətlərarası münaqişələri sözlə, siyasətlə qızışdırmaq yox, söndürmək vaxtıdır. Bu gün Qafqazda və Yaxın Şərqdə tökülən qanlar bəs deyilmi?!

Əgər Fransa prezidenti "soyqırım" haqqında adı çəkilən qətnaməni imzalamağa razılaşıbsa, deməli, burada bir səbəb var, təqribən yüz il öncəki keçmişi qurdalamaq, tarixi hadisələri ağlasığmaz dərəcədə təhrif edərək saxtalaşdırmaq kiməsə əlverişlidir.

"Soyqırım" haqqında Fransa qətnaməsi dünyanın yetmişdən çox ölkəsində fəaliyyət göstərən erməni diasporlarının millətçi mərkəzlərinin çoxillik məqsədyönlü səylərinin nəticəsidir. Bu illər ərzində ABŞ Konqresi də həmin mərkəzlərin aramsız hücumlarına məruz qalmışdır. Onlar hər dəfə müxtəlif variantlarda erməni "soyqırımı"nın layihələrini təklif edərək, 1915-ci ildə Osmanlı imperiyasında yaşamış "qəddar türklərin" mühakimə olunmasını tələb edirlər. Bugünədək Konqres həmin layihələri əsaslı arqumentlərlə rədd edir. ABŞ-ın dövlət katibi Corc Şults Nümayəndələr palatasının spikeri Tomas Neylə göndərdiyi 04.03.1985-ci il tarixli məktubunda bir çox tarixçilərin gəldiyi nəticələrə əsaslanaraq yazırdı: "Türkiyədə 1915-1923-cü illərdə, guya ki, milyon yarım ermənininin "soyqırımı" qurbanı olduğu haqqında ideya uydurmadır". Bu məktubu ABŞ-ın 69 professoru, alimi imzalamışdı. ABŞ-da uğursuzluqla üzləşən erməni lobbiçiləri Kiçik Asiyada yüz il əvvəl baş vermiş hadisələrə görə İngiltərə parlamentinə, Almaniya bundestaqına arasıkəsilməz hücumlarını daha böyük səylə davam etdirirlər.



SSRİ Daxili İşlər Nazirliyinin qırğın törədən cəllad əsgərləri Bakı şəhərinin küçələrində. 20 yanvar 1990-cı il.







SSRİ Daxili İşlər Nazirliyi qoşunlarının azərbaycanlılara qarşı törətdiyi qırğın. 20 yanvar 1990-cı il.



**SSRİ Daxili İşlər Nazirliyi qoşunlarının qətlə yetirdiyi şəhidlərin dəfn mərasimi. 20 yanvar 1990-cı il.**







**Qanlı 20 yanvar hadisələrindən sonra Bakı küçələrində tanklar və onların tırtılları altında əzilmiş minik avtomobillərindən biri.**




Qaniçən Qorbaçov — sən cəlladsan! Sovet Ordusu faşistdir! Rədd olsun Sov.İKP! Ali başkəsən, cəlladlarını buradan rədd et! Sov. İKP "demokratiyası" (*dar ağacı üstündə edilmiş yazı*). Canavar yuvası (*Kremlin ulduzundan sağdakı yazı*).

*Bakı, 20 yanvar 1990-cı il.*

Erməni millətçi ekstremistlərinin liderləri çox istərdilər ki, Fransa parlamentində qəbul edilmiş qətnaməyə bənzər sənədlərin digər ölkələrin parlamentlərində də qəbul edilməsi yolunda zəncirvarı reaksiyaya nail olsunlar.

Müasir Türkiyə Respublikası dünyəvi, demokratik, sivil bir dövlətdir. Bu dövlət ölkədə yaşayan bütün millətlərin, o cümlədən ermənilərin kütlələrin hüquqsuzluğuna, mürtəce sultan rejiminə etiraz dalğasının, eləcə də Birinci Dünya müharibəsində məğlub olmuş Türkiyəni parçalamaq, onu xammal mənbəyinə çevirmək məqsədi güdən Avropanın müstəmləkəçi dövlətlərinə qarşı türk vətənpərvər qüvvələrinin mübarizəsi nəticəsində yaranmışdır.

Osmanlı imperiyasında az qala yüz il əvvəl baş vermiş hadisələrə aid məsələni böyük dövlətlərin parlamentləri səviyyəsinə qaldırmaqla millətçi erməni təbliğatçıları



praktiki olaraq yeni millətlərarası yanğın törədir, türk xalqını bu böyük dövlətlərin xalqları ilə üz-üzə qoyurlar. Əslində isə onlar xristianları müsəlman xalqları üzərinə qaldırırlar. Onsuz da 2001-ci ildə Yer kürəsinin müxtəlif bölgələrində 200-dən artıq gizli və açıq millətlərarası münaqişə ocağına çevrilmiş dünya xalqlarına bu lazımdırmı?

Aydındır ki, yaralı Qafqazdan, viran olmuş Qarabağdan, dilənçi vəziyyətinə düşmüş Ermənistan Respublikasından, qeyri-sabit Türkiyə Kürdüstanından uzaqlarda öz təhlükəsizliyini və firavanlığını təmin etmiş erməni millətçi mərkəzlərinə bu vacibdir və sərfəlidir.

Bəs son illər dünya çevrəsində müasir erməni millətçiliyindəki fəallığın həqiqi, gizlədilən səbəbləri, onların ciddi-cəhdlə körüklədikləri "soyqırımı" terminindəki əsas məna nədən ibarətdir? Hesab edirik ki, səbəblər bir neçədir. Əlbəttə ki, erməni millətçi fəalları imkan düş-

dükcə Türkiyəni ABŞ və Qərbi Avropadan uzaqlaşdırmaq. Türkiyə—ABŞ, Türkiyə—Qərbi Avropa münasibətlərinə, nəyin bahasına olursa-olsun, zərbə endirmək niyyətindədirlər. Ancaq əsas səbəb, heç şübhəsiz ki, bizim ölkəmizlə, Azərbaycanla bağlıdır və necə deyərlər, buz dağının üzdə görünən hissəsidir. Məsəl var, deyərlər, oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. İndi erməni millətçi ekstremistləri hər vəchlə bizim doğma Dağlıq Qarabağın işğalını qanuniləşdirmək arzusundadırlar.

Erməni təbliğatçılarının əsas məqsədi postsovet məkanında əvvəl Qorbaçovun, sonra isə Yeltsinin Rusiyada hakimiyyəti dövründə yaranmış əlverişli şəraitdən, Rusiya cəmiyyətində siyasi və iqtisadi tənəzzüldən, dərin sosial böhrandan, həm rus, həm də dünya siyasətinin bir çox aparıcı qüvvələrinin adicə məlumatsızlığından, təsadüfiliyindən və həqiqətdən uzaq olmalarından istifadə edərək, çoxdan baş vermiş tarixi hadisələri dünya ictimaiyyətinə öz bildikləri kimi sırımaqla onları çaşdırmaq və bununla da ictimaiyyətin diqqətini Dağlıq Qarabağ azərbaycanlılarından, o cümlədən Xocalı şəhərində və işğal altında olan digər Azərbaycan rayonlarında törətdikləri qanlı erməni cinayətlərindən yayındırmaqdır. Bu, əsl soyqırımı deyilmi?! Aydın deyil ki, Fransa prezidenti cənab Jak Şirak 1828-1832-ci illərdən başlayaraq, Cənubi Qafqaz və Ön Asiya yaylasında çoxluq təşkil edən azərbaycanlıların dəfələrlə öz tarixi torpaqlarından kütləvi şəkildə köçürülməyə, qovulmağa məruz qaldıqlarını niyə nəzərdən qaçırır. 1828-1832, 1877-1878, 1905-1907, 1918-1920, 1948-1953 və 1988-ci illərdə belə olmuşdur.

1988-ci ilin fevralında Ermənistandan Azərbaycana qaçqınların kütləvi axını başlandı. 230 mindən artıq azərbaycanlı, o cümlədən qadınlar, uşaqlar, qocalar, əlillər, xəstələr nəsilbənəsil öz zəhməti, alın təri və əməyi ilə





**Ermənilərin ilk dəfə İranın Marağa kəndindən Azərbaycanın Dağlıq Qarabağ ərazisinə köçürülməsinin (1828) 150 illiyi şərəfinə ucaldılmış abidə (1978). Ermənicə "Marağa 150" yazılmışdır.**



**Tarixi həqiqətləri daim inkar edən ermənilərin tikdirdikləri (1978) və özlərinin də dağıtdıqları (1991) "Marağa 150" abidəsi.**

yaratdıqları evləri, əmlakı, bəslədikləri mal-qaranı erməni qaniçənlərinə qoyub torpağı tərk etdilər. Əhalinin bir hissəsi sərhədi keçərək İranda sığınacaq tapdı. Erməni silahlıları müdafiəsiz insanları amansızcasına qarət edir, döyür, vəhşicəsinə öldürürdülər.

Cənab fransızlar, sizin bunlar haqqında məlumatınız varmı?

Bu, həmin torpaqlarda — Qərbi Ermənistanda, Cənubi Qafqazda, bütün Ön Asiya yaylalarında min illər boyu yaşamış insanlara — avtoxton sakinlərə qarşı erməni millətçi mərkəzi tərəfindən çoxdan işlənib hazırlanmış plan üzrə davamlı olaraq aparılan etnik təmizləmə əməliyyatının tərkib hissəsi idi. O vaxtkı İttifaq hökuməti Mixail Qorbaçovun simasında ikiüzlü siyasət yeridərək erməni terrorçularını dəstəklədi. Qanlı münaqişə alovlandı. Bu gün Azərbaycan ərazisinin beşdə bir hissəsi, o cümlədən doğma Azərbaycan torpağı olan və 1828-ci ildən başlayaraq, Rusiyanın iştirakı ilə İran və Türkiyədən gəlmə erməni ailələri köçürülən Dağlıq Qarabağ da işğal altındadır. Xatırladaq ki, 1978-ci ildə Dağlıq Qarabağ erməniləri ilk dəfə İrandan köçərək Dağlıq Qarabağda yerləşdirilmiş əcdadlarının şərəfinə abidə ucaltmışlar. 1991-ci ildə həmin abidə onların özləri tərəfindən həyasızcasına dağıdılmışdır. Ancaq həmin abidənin fotoşəkilləri müxtəlif ensiklopediyalarda və başqa nəşrlərdə saxlanılmışdır. Məgər bu inandırıcı fakt deyilmi ki, ermənilər Dağlıq Qarabağ ərazisinə gəlmədirlər və onlar özləri də bunu çox gözəl bilirlər?

Xatırlatmaq yerinə düşərdi ki, hələ SSRİ dağılana qədər ermənilər öz respublikalarından başqa millətlərin nümayəndələrini (türk, kürd, rus və s.) tamamilə sıxışdırıb çıxararaq, yüz faiz monoetnik dövlət yaratmışdılar. Onlar Cənubi Qafqazın yerli əhalisi olan azərbaycanlıları sıxışdırıb çıxarmaq planlarını və millətçi ideyalarını həyata







**Ermənistandan deportasiya edilmiş azərbaycanlı qaçqınlar. Noyabr. 1988-ci il.**





Ermənistandan deportasiya edilmiş azərbaycanlı qaçqınlar. Noyabr, 1988-ci il.







Ermənilər tərəfindən Qarabağ rayonlarından didərgin düşmüş məcburi köçkünlərin yaşadığı düşərgə.









Millət vəkili, akademik Cəlal Əliyevin qaçqınlarla görüşü.

# ERMƏNİSTAN VƏ QAFQAZDA RAKET TƏHLÜKƏSİ










Millət vəkili akademik Cəlal Əliyev qaçqınlar arasında.





Erməni azğınları tərəfindən işğal edilmiş
Qarabağ rayonlarından olan qaçqınlar.









**Ermənistanın işğal etdiyi Qarabağ bölgəsinin azərbaycanlı qaçqınları. 1992-ci il.**

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsinin
KİTABXANASI



Erməni cəlladları tərəfindən kürəyi qızdırılmış dəmirlə dağlanmış Qarabağ bölgəsindən olan azərbaycanlı qadın. 1992-ci il.







Ermənistanın işğal etdiyi Qarabağ bölgəsinin azərbaycanlı qaçqınları. 1992-ci il.



**Erməni qaniçənlərinin və Sovet Ordusu 366-cı alayının törətdiyi Xocalı soyqırımı. 26 fevral 1992-ci il.**







**Erməni qaniçənlərinin və Sovet Ordusu 366-cı alayının törətdiyi Xocalı soyqırımı. 26 fevral 1992-ci il.**



**Erməni qaniçənlərinin və Sovet Ordusu 366-cı alayının törətdiyi Xocalı soyqırımı. 26 fevral 1992-ci il.**







**Erməni qaniçənlərinin və Sovet Ordusu 366-cı alayının törətdiyi Xocalı soyqırımı. 26 fevral 1992-ci il.**



**Erməni qaniçənlərinin və Sovet Ordusu 366-cı alayının törətdiyi Xocalı soyqırımı. 26 fevral 1992-ci il.**



keçirmək üçün Sov.İKP MK-nın Siyasi Bürosundakı havadarlarına (Mikoyan, Beriya və b.) arxalanırdılar.

1948-1953-cü illərdə SSRİ Nazirlər Sovetinin İ. V. Stalinin imzası ilə təsdiqlənmiş qərarına əsasən 100 min azərbaycanlı Ermənistanın dağlıq rayonlarından Azərbaycanın malyariya yayılmış qızmar iqlimi olan Kür-Araz ovalığına köçürülmüşdür. 4083 saylı Fərman belə adlanır: ***"Azərbaycan millətindən olan kolxozçuların və digər azərbaycanlı əhalinin Ermənistan SSR-dən Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi barədə".*** Bu akt dövlət səviyyəsində, Stalin rejiminə xas qəddarlıqla həyata keçirilmişdir. Faktiki olaraq bu, sovet vətəndaşının öz hökuməti tərəfindən öz tarixi torpaqlarından deportasiyası idi. Sovet rəhbərliyinin insanlıqdan kənar bu aktına verilmiş siyasi qiymət "1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 18 dekabr 1997-ci il tarixli Fərmanında öz əksini tapır.

Yeri gəlmişkən qeyd edək ki, 1935-ci ildən başlayaraq erməni millətçi ekstremistləri kütləvi şəkildə həm xəritələrdə, həm də 1917-1920-ci illərdə işğal olunmuş köklü Azərbaycan torpaqlarında Türk—Azərbaycan mənşəli coğrafi adların dəyişdirilməsinə başladılar. Bütövlükdə İrəvan, Naxçıvan, Qarabağ xanlıqları ərazisində yerləşən 15 min Azərbaycan mənşəli coğrafi ad "toponim soyqırımına" məruz qaldı. Ermənilər tərəfindən adları dəyişdirilmiş makro-mezo-mikrotoponimlərin böyük hissəsi XIX-XX əsrlərdə müxtəlif ölkələrdə yayımlanmış xəritələrdə, tarixi-coğrafi ədəbiyyatlarda, rəsmi sənədlərdə saxlanılmışdır.

Son bir neçə onilliklərdə Azərbaycan xalqı öz qədim tarixi vətəninin təbii sərvətlərinin böyük hissəsindən —

torpaqlardan, yeraltı sərvətlərdən, su ehtiyatlarından, bitki və heyvanat aləmindən, otlaqlardan, dağlardan, düzənliklərdən, bir sözlə, bütünlüklə ona məxsus olan biosfer elementlərindən məhrum olmuşdur. Bununla yanaşı, minlərlə azərbaycanlı yeni mühitdə öz doğma torpağında formalaşmış təkrarsız adət-ənənələrini, mədəniyyətini, mənəvi dəyərlərini, o cümlədən folklorunu, xalq musiqisini, mahnılarını, habelə qədim sənətkarlıq xüsusiyyətlərini və s. itirmək təhlükəsi qarşısında qalmışdır.

## II

2001-ci il aprelin 21-də Moskvanın məlum "Nezavisimaya qazeta", 25-də isə Rusiya qəzeti "Kommersant" müvafiq olaraq "Mənəviyyatsız və perspektivsiz mövqe" və "Osmanlı imperiyasında baş vermiş erməni soyqırımı 86 il sonra etiraf edilir" başlıqlı yazılar dərc etdilər. Sifarişlə yazıldığı aşkar hiss olunan dayaz təhkiyəli həmin üzdəniraq məqalələrdən də görünür ki, ermənilərin məskunlaşdığı bütün ölkələrdə (bir daha xatırladaq ki, keçmiş Ermənistan SSR-in hüdudlarından kənarda indi 5 milyona qədər erməni yaşayır) bu ölkələrin parlament və hökumətlərini, ictimaiyyətini və vətəndaşlarını Türkiyə Respublikasının milyonlarla vətəndaşına, faktiki olaraq bütün türk xalqına qarşı böhtan və şər kampaniyasına qoşmaq üçün erməni millətçi mərkəz və komitələri tərəfindən fəal, ardıcıl, məqsədyönlü təbliğat işi aparılır.

Antitürkiyə kampaniyasının hərəkətverici mexanizmi erməni lobbiçilərinin həyasızlığı, yalançılığı, onların kinlə dolu millətçilik enerjisi, Avropa parlamentlərində və ABŞ konqresində *mövcud olan erməni təəssüblü adamların* say çoxluğudur. Üsulu? Nə vaxtsa Volterin ifadə etdiyi, əsrlərin sınağından çıxmış klassik üsuldur: **"Uydurun, uydurun, - hər halda nəsə qalacaq".**



*Məqsədlər?* Onlar aşkardır. Həm də təbii ki, sırf mənfəət güdən hədəf var: 1914-1920-ci illərdə Şərqi Anadoluda — bütün dünyanın hərb maşını ilə döyüşən Osmanlı ordusunun arxa cəbhəsində elə ermənilərin özlərinin xəyanəti üzündən başlanmış *vətəndaş müharibəsindəki* "insan tələfatına" görə pul təzminatı almaq.

Ləyaqət və ədalət hissini uca tutan onlarla şərqşünas, tarixçi, etnoqraf alimin simasında tarix elmi çoxdan sübut etmişdir ki, 1914-1920-ci illərdə ekstremist erməni daşnak başçılarının döyüşən və "ölümcül xəstə" olan Osmanlı imperiyasının arxa cəbhəsində vətəndaş müharibəsi törətməsi nəticəsində əslində nə baş vermişdir? Bunu xatırlatmaq üçün qısa bir tarixi ekskurs edək.

1914-cü ildə Birinci Dünya müharibəsi zamanı Cənubi Qafqaz cəbhəsində türk ordusu böyük itkilər verdi. Vəziyyəti daxili düşmənlər — Rusiyanın müttəfiqləri olan Türkiyə erməniləri daha da ağırlaşdırdılar. Rus imperatoru II Nikolay *tərəfindən Türkiyə ermənilərinə* verilmiş rəsmi vədi təsdiqləyən məlum sənəddə göstərilir ki, Şərqi Anadoluda Erməni dövləti yaradılacaq və İrəvan quberniyası ona birləşdiriləcək.

1914-cü ilin fevralında millətçi erməni partiyası "Daşnaksütun"un emissarlarının qızışdırdıqları Zeytun əyalətinin erməniləri Osmanlı ordusuna etiraz etdilər. Müharibə başlayandan sonra bütün Şərqi Anadoluda erməni silahlı dəstələri fəaliyyətə başladı. Daşnak başçıları elə güman edirdilər ki, hərbi əməliyyatların getdiyi qızğın bir vaxtda ermənilərin üsyanı Rusiyanın Şərqi Anadolunu ələ keçirməsini asanlaşdıracaq. Şərqi Anadolunun türk kəndləri müdafiəsiz qalmışdı. Təxmini hesablamalara görə, sayı yüz minə çatan erməni quldurları dinc əhaliyə hücum etmişlər. Onlar terror aktları həyata keçirir, kom-






*"Türkiyədə ermənilərin azad olunmasını qarşısına məqsəd qoyan,* ***artıq əsrin dörddə biri qədər qanlı yol keçən*** *"Qnçaq" sosial-demokratik komitəsi indiki siyasi hadisələrin təsiri ilə Tavr dağlarından, Ermənistan hüdudlarından aşağı enib döyüş meydanına çıxır.* ***Osmanlıları qanda boğmaq üçün müharibə və inqilab şeypurunu çalır.***

*Erməni millətinin varlığının şübhə altına qoyulduğu bu böyük mübarizədə "Qnçaq" komitəsi və bütün erməni milləti bamlıqla öz maddi və mənəvi gücünü toplayacaq, inqilab qılıncını sıyıraraq dünya müharibəsinə qoşulacaqdır.*

*Üçlər İttifaqı (Antanta), xüsusilə də rusiyalı döyüş qardaşlarımız öz müttəfiqləri ilə qarşılıqlı fəaliyyət göstərib, bütün siyasi və inqilabi imkanlarını Ermənistanda və Kilikiyada, Qafqazda və Azərbaycanda qəti qələbəyə yönəldəcəklər.*

*Beləliklə, irəli, yoldaşlar, iş başına! Ermənilərin indi və əbədi yaşaması üçün bizi məhv edə biləcək ölümə qarşı ölüm saçaq!*

*Paris, 1914-cü il. "Qnçaq" sosial-demokratik komitəsinin qərargahı".*

***Birinci Dünya müharibəsinin əvvəllərində qnçaqçılar tərəfindən dərc edilmiş çağırış.***

munikasiyaları dağıdır, körpüləri partladır, arxa cəbhədə türklərə qarşı faktiki olaraq rus ordusunun hissələri kimi mübarizə aparırdılar. Türk hökuməti məcburiyyət qarşısında qalaraq, bir diviziyanı rus-türk cəbhəsindən çıxarıb erməni təhlükəsini aradan qaldırmaq üçün arxa cəbhəyə göndərdi.

1915-ci ilin mart ayında Türkiyənin Van əyalətində ermənilər üsyan qaldırdılar. Erməni terrorçuları Van şəhərini ələ keçirərək, 3000-dən çox türkü qətlə yetirdilər. Bitlis əyaləti də Vanda törədilmiş vəhşiliklərlə üzləşdi.

1916-cı ilin aprel ayınadək rus ordusu özlərini "üsyançı dəstələr" adlandıran erməni quldurları ilə birlikdə Şərqi Anadolunun böyük bir hissəsini — Trabzon, Ərzurum, Bitlis və başqa əyalətləri işğal etdi. Nəticədə təxminən 1 milyona qədər türk öz yurd-yuvasından didərgin düşdü.

Vanın erməni dəstələri tərəfindən işğalından sonra, 1915-ci ilin aprelində türk hökuməti rus ordusunu erməni silahlı dəstələrinin köməyindən məhrum etmək məqsədilə ermənilərin həmin ərazilərdən köçürülməsi haqqında qərar qəbul etdi.

1917-ci ildə Rusiyada inqilab baş verdi. Erməni hərbi hissələri istisna olmaqla, rus ordusu Şərqi Anadolunu tərk etməyə başladı. 1918-ci ilin aprel ayına qədər Ərzincan, Trabzon, Ərzurum, Qars və Van azad edildi. Rus ordusunun Şərqi Anadolunu tərk etdiyi və türk ordusunun oraya daxil olduğu müddətdə yaranmış qarışıqlıqdan istifadə edən erməni daşnakları müsəlman əhalisini kütləvi surətdə qırmağa başladılar. Böyük bir ərazi viran edildi. Rus ordusunun silahlarının əksər hissəsi ermənilərin əlinə keçmişdi. Onlar hər vasitə ilə rus əsgərlərindən silahları dəyər-dəyməzinə əldə etməyə çalışırdılar. Tarixdə ilk dəfə olaraq erməni siyasi rəhbərləri rus ordusunun tərk etdiyi Şərqi Anadolu torpaqlarında, Rusiyanın tərkibindəki İrəvan quberniyası da daxil olmaqla, Erməni dövləti (respublikası) qurdular.



Türk ordusunun bu ərazilərə daxil olması ilə erməni quldur dəstələri qarşılarına çıxan türk — azərbaycanlı kənd və şəhərlərini viran qoyaraq, Cənubi Qafqaza doğru qaçmağa başladılar. Təkcə Ərzurumda 8 mindən çox türk qətlə yetirildi. Aşağıdakı faktlar ABŞ alimləri C. Makkarti və K. Makkartinin tarixi sənədlərə əsaslanan kitabından ("Türklər və ermənilər", Bakı, 1996) götürülmüşdür.

Bu tarixçi-şərqşünaslar yazırdılar: **"Soyqırım baş veribmi? Osmanlıların fəaliyyətini izləyərkən inanmaq çətindir ki, soyqırım haqda əmr mövcud olmuşdur. Bəs nə üçün İstanbul və İzmirdə yaşayan on minlərlə erməni soyqırıma məruz qalmamışdır?"** (s.68). Sonra davam edirlər: **"Şərqi Anadoluda türk hökuməti tərəfindən təşkil olunmuş soyqırım olmamışdır"** (s.73).

Bu məsələni tədqiq edən tarixçilərin gəldiyi ümumi nəticə belədir: vətəndaş müharibəsi illərində Şərqi Anadoluda döyüş əməliyyatları gedən ərazilərdən 600-700 min erməni deportasiya olunmuşdu, onlardan təxminən 300-350 min nəfər tələf olmuş, həmin vaxt 2,5 milyon türk, kürd, azərbaycanlı qətlə yetirilmişdir.

Maraqlıdır ki, bu faktlar Parisdə erməni nümayəndə heyətinin başçısı Poqos Nubar tərəfindən Fransa xarici işlər nazirinə təqdim edilən 1918-ci il 11 dekabr tarixli məktubda göstərilən faktlarla üst-üstə düşür (bax: *J. Malevil.* 1915-ci il erməni faciəsi. Bakı, 1990, s.64).

Şərqi Anadoluda türk ordusunun həmləsindən qorxub qaçmış erməni millətçi dəstələri Azərbaycanda öz vəhşiliklərini, qanlı cinayətlərini davam etdirirdilər. Təkcə İrəvan quberniyası ilə qonşu olan Azərbaycanın Zəngəzur mahalında 115 kənd dağıdılmış, viran edilmiş, 3257 nəfər

kişi, 3276 nəfər qadın, 2196 uşaq qətlə yetirilmişdir (Azərbaycan Mərkəzi Dövlət Arxivi, f.970, s.1, i.161, s.1-9).

***Cənab Fransa Prezidenti! Lütfən diqqət edin, 1914-20-ci illərdə 2,5 milyon türk, azərbaycanlı və kürd əhalisi ermənilər tərəfindən öldürülmüşdür!***

Bu rəqəm uydurma, ehtimal rəqəmi deyil, bütün dünyaya çoxdan məlum olan faktdır. Türkiyə arxivlərindəki rəsmi dövlət sənədləri vasitəsi ilə təsbit olunmuş, xarici alimlərin tədqiqatları nəticəsində tarix kitablarına yazılmışdır. Lakin nədənsə, Avropada, Qərb yarımkürəsində bu insan tələfatlarına, türk xalqının bu böyük itkilərinə görə heç kim kədərlənib təəssüflənmir. Heç kim bu insan itkilərinə görə ermənilərdən, Qərbdən, Rusiyadan "pul təzminatı" istəmir. Faşizmin dəhşətlərini yaşamış Avropa xalqlarının özünün bəlkə də daha böyük və dramatik faciələri var. Ona görə də başqa xalqların, indiki halda isə türk xalqının tarixi (məhz tarixi!) problemlərinə qarşı onların biganəliyini başa düşmək olar.

Beləliklə, bütün dünyanın bildiyi kimi, Ermənistanın özündə və Azərbaycanın Dağlıq Qarabağ ərazisində ermənilər dilənçi vəziyyətdə yaşadığı bu anda yağlı Amerika və Avropa yeməklərindən harınlamış bir ovuc tox, zəngin erməni millətçisi bütün dünyanı ayağa qaldırıb, dövlət başçıları və parlamentlər vasitəsi ilə aləmə car çəkdirmək istəyir ki, "İnsanlar, bilin və agah olun, 1915-1917-ci illərdə türklər məqsədyönlü şəkildə erməni xalqını məhv etmişlər!"

**Təkrar edirik ki, bu cür təxribatçı, saxtakarlıqla dolu yalan və böhtanları yaymaqda əsas məqsəd əslində Azərbaycan torpaqları olan Dağlıq Qarabağın işğalını qanunilaşdirməkdir. Təkzibolunmaz arxiv materialları mövcuddur ki, Dağlıq Qarabağ (onun torpağı, meşələri, dərələri, dağları, vadiləri, təbii**



**sərvətləri, çayları, gölləri, bulaqları və s.) heç vaxt ermənilərin əcdadlarına məxsus olmamışdır. Bura uzun illər davam edən Osmanlı-İran müharibələri dövründə erməni qaçqınları üçün yalnız xilaskar, qonaqpərvər sığınacaq yeri, bəli, sığınacaq yeri olmuşdur.** 1593, 1727 və 1747-ci illərdə Dağlıq Qarabağ Türkiyə tərəfindən tutulduqdan sonra bu vilayətin əhalisindən alınan vergilərin dəqiq cəmini bilmək üçün siyahıyaalma aparılmışdır. Bu sənədlər Türkiyənin arxivində saxlanılır, onlar nəşr olunmuşdur. 1823-cü ildə Rusiya da Qarabağ əyalətlərinin ətraflı təsvirini vermişdir. Bu barədə məlumatlar hələ XIX əsrdə dərc edilmişdir. Nə məlum türk, nə də rus sənədlərində ermənilərin adı ümumiyyətlə xatırlanmır. Sənədlərdə bütün "müsəlman olmayan" əhalini ümumiləşdirərək "xristian" kimi qeydə almışlar. Onlarla müqayisədə Dağlıq Qarabağın müsəlman əhalisi mütləq çoxluq təşkil etmişdir.

## III

Ermənilərin "hay" (etnonim) adının özü təsdiq edir ki, "Türkiyə Ermənistanı" deyilən ərazi Ön Asiya yaylası, onun şərq, qərb və cənub hissələri bu xalqın tarixi vətəni deyil. Şərqşünaslara yaxşı məlumdur ki, hələ e. ə. XVII-XII əsrlərdə bu ərazinin dağlıq hissələrində köçəri irandilli tayfalar, münbit vadilərdə, suvarılan düzənlik torpaqlarda isə sonralar, e.ə. XVII əsrdə erkən quldarlıq dövləti yaratmış het tayfaları və qrupları yaşamışlar. Bu dövlətin daha sonra kiçik knyazlıqlara parçalandığı da tarixə məlumdur. E.ə. IX əsrdə Van gölü sahillərində paytaxtı Tuşpa olan iri Van çarlığı (Urartu dövləti) yaranmışdır. Ön Asiyada dövrün ən güclü dövləti olan Urartu e.ə. VI əsrə qədər yaşaya bildi. Urartulular özlərini **Biayni**

(yaxud **Biaini**) adlandırırdılar. Urartuluların dili e.ə. XVI-XIII əsrlərdə qədim Mesapotamiyada **Mittani** adlı dövlət qurmuş hurrilərin dilinə çox yaxın idi.

Bu yaxınlarda şərqşünas-dilçilər qədim Urartu mixi yazı mətnlərinin çox hissəsini açmağa müvəffəq olmuşlar. Bu gün hamıya məlum olan faktdır ki, həm də urartulular qədim türk dilinin Ural — Altay şivələrində danışmışlar, yəni onlar Asiyadan, daha dəqiqi, Altay və Sibirdən gəlmiş tayfaların törəmələri olmuşlar. Alimlər təsdiqləyirlər ki, hurri-urartu dilinin quruluşu ilə qədim erməni dilinin quruluşu arasında heç bir bənzəyiş yoxdur. Sonuncu Hind — Avropa ailəsinə mənsub olduğu halda, hurri və urartu dilləri bütün türk dilləri kimi iltisaqi dillərdir. Bu dildə sözdüzəltmə kökə şəkilçi artırmaq yolu ilə baş verir. Şərqi Anadoluda aşkar edilmiş qayaüstü yazı və rəqəmlərin xarakteri üslubuna görə Şərqi Azərbaycanda — Qobustanda, habelə Sibirdə tapılmış analoqlarla tam eynidir və bu, hurri-urartuluların Asiya mənşəyini bir daha təsdiq edərək, onların hay-ermənilərlə qohumluğunu istisna edir.

Tarixçilərin fikrincə, həmçinin Şərqi Anadoluda, Suriya və İranda tapılmış çoxsaylı qayaüstü yazılardan və eləcə də qədim yunan yazılı məxəzlərindən aydın olur ki, hay tayfaları (daha doğrusu, onların ulu əcdadları) neçə-neçə tayfanı özündə cəmləşdirib, Urartu dövlətinin ərazilərinə e.ə. VI əsrdən tez olmayaraq, yəni öncə iranlıların talanları, sonra Qara dənizin şimal sahillərindən gələn köçəri skiflərin basqınları nəticəsində Urartu dövlətinin dağılmasından sonra gəlib çıxmışlar. Aydındır ki, hayların əcdadları Ural — Altay qrupuna mənsub türk dilində danışan yerli hurri və urartuluların yaşadığı ərazilərə göydən düşə bilməzdilər.

Yalnız məntiqlə ehtimal etmək olar ki, hay tayfalarının əcdadları döyüşçü birləşmələri halında skiflərə qoşulub, urartuluların artıq tənəzzülə uğramış yüksək sivilizasiyasını dağıtmaqda və talan etməkdə yadellilərə kömək göstərmişlər. Köçəri skiflər varlı Van çarlığına hücum edib oranı viran qoyduqdan sonra əldə etdikləri qənimətlə doğma torpaqlarına — Qara dənizin şimalındakı yovşanlı çöllərə, öz köçəri həyat tərzlərini davam etdirməyə getdilər. Bundan sonra isə köçəriliyə o qədər meylli olmayan haylar e.ə. 593-cü ildə qədim Azərbaycan dövləti olan Midiya tərəfindən işğal və talan edilmiş bərəkətli Urartu torpaqlarında məskunlaşmaqdan, əlbəttə, vaz keçə bilməzdilər. Necə deyərlər, "müqəddəs yer boş qalmaz". Tarixin o sərt, amansız çağlarında bütün dünyada özgə torpaqlarına sülh məramlı dostluq səfərinə getmək dəb deyildi. Gələn yalnız talana, qarətə, mal-mülk, qul, yaşayış şəraiti ələ keçirməyə, qazanmağa gəlirdi. Zəngin, çiçəklənən quldarlıq dövləti Urartuya gəlincə isə, heç şübhəsiz, bu dövlət e.ə. VII-VI əsrlərdəki yüksək mədəniyyətinə görə daim qonşularının və uzaq yadellilərin zorakılığa arxalanaraq udmağa çalışdıqları yağlı tikə idi. Yaxın və uzaq tarixdə bunun nümunələri istənilən qədərdir.

Üç min il bundan əvvəlki o uzaq dövrlərdə insanlar, tayfalar, dövlətlər arasındakı münasibətlərdə müharibələr, hücumlar, qətllər, zorakılıqlar, işğallar və digər qəddarlıqlar normal sayılırdı. Bu həqiqət indi hamı üçün aydındır. Amma günəşin daha qızmar, insanların daha qaynar və daha temperamentli olduğu Şərqdə, Cənub ölkələrində, Asiyada, Qafqazda bütün bu sadalanan cəhətlər həmişə, indinin özündə də ən sərt, çox zaman isə faciəvi şəkildə təzahür etmişdir. Təbii ki, Ön Asiya yaylasının və Kiçik Asiyanın şərqinə kütləvi mühacirət etmiş diribaş və özlərindən başqa heç bir milləti sevməyən gəlmə haylar təbii "ksenofob" mentalitetləri ilə burada yaşayan yerli hurri əhalisi, eləcə də köçəri və yarımköçəri irandil-

li proto-kürd tayfaları üçün həmişə qıcıqlandırıcı düşmən ünsürü olmuş, bunun da müqabilində Şərqi Anadolunun kürdləri hay-ermənilərin sonrakı həyatı və taleyində obyektiv mənfi rol oynamışlar.

Aydındır ki, Urartu dövləti əvvəlcə iranlılar, sonra isə skiflər tərəfindən darmadağın edildiyi təqdirdə də avtoxton hurri-urartu əhalisi yer üzündən tam silinib gedə bilməzdi. Bu əhalinin qətlə yetirilməmiş, köləliyə aparılmamış hissəsi nəticə etibarilə həmin dövrdə bütün Yaxın və Orta Şərqdə, Orta Asiyada önə çıxaraq hegemonluğu ələ keçirmiş Əhəmənilər (e.ə. 558-330-cu illər) sülaləsindən olan İran hökmdarlarının bac verənlərinə və vassallarına çevrildi. Tarixin daha sonrakı dönəmində onlar yerli kürd tayfaları və eləcə də hər cür şəraitə uyğunlaşmağı bacaran hay-ermənilər tərəfindən assimilyasiyaya məruz qalmışlar ki, bu da təbiidir.

Hay xalqı ("ermənlər" kimi) ilk dəfə İran hökmdarı I Dara Histaspın Həmədan şəhəri yaxınlığındakı Bisütun dağının qayaları üzərinə üç dildə həkk etdirdiyi (təq. e.ə. 520-ci il) kitabələrində xatırlanır. Qədim fars dilində olan yazılarda Van gölü yaxınlığında yaşayan "ərmənlər" hökmdar Daranın bac verənləri elan edilir. Bu yazının Babilə və Elama aid hissələrində isə "ərmənlər" anlayışına "urartulular" sözü uyğun gəlir və bundan da o nəticəni çıxarmaq olar ki, qədim iranlıların "ərmən" adlandırdığı tayfalar urartu tayfaları ilə eyniləşdirilmişdir.

Qədim Azərbaycan dövləti olan Midiya artıq skiflər tərəfindən dağıdılmış Urartu dövlətini işğal etdikdən sonra (e.ə. 593-cü il) Van gölü ətrafında **Ərmən** canişinliyi yaradıldı. Müəyyən vaxt keçdikdən sonra Şərqi Anadolunun bu hissəsini qədim yunanlar Ermənistan (və yaxud Böyük Ermənistan) adlandırmağa başladılar.

E.ə. 550-549-cu illərdə Midiyanın iranlılar, daha dəqiq desək, Fars əyalətinin canişini, Əhəmənilər sülalə-








**Erməni terrorçuları tərəfindən partladılmış Tbilisi—Ağdam avtobusu və onun qurbanlarından biri. Avqust, 1990-cı il.**





Erməni terrorçularının partlatdığı Tbilisi—Ağdam avtobusu sərnişinlərindən olan qurbanlar. Avqust, 1990-cı il.





Erməni terrorçularının partlatdığı Bakı—Moskva qatarı. 3 iyun 1991-ci il.





Erməni terrorçularının partlatdığı Bakı —Moskva qatarı sərnişinlərindən biri. 3 iyun 1991-ci il.







**Erməni terrorçularının partlatdığı Moskva—Bakı qatarı. 1 avqust 1991-ci il.**






Erməni terrorçularının yandırdığı "Sovetskaya Kalmıkiya" bərəsi və orada həlak olmuş sərnişinlər. 9 yanvar 1992-ci il.







Erməni terrorçularının vurduğu vertolyotun qalıqları və onun qurbanları. Şuşa. 4 fevral 1992-ci il.





**Ermәni terrorçularının partlatdığı Bakı—Yevlax avtobusunda baş vermiş faciә.**



sindәn olan II Böyük Kir tәrәfindәn işğalından sonra Cәnubi Qafqaz vә Ön Asiyanı әhatә edәn Əhәmәnilәr dövlәti yaradıldı. Özünün çiçәklәnmә dövründә (e.ә. VI әsrin sonu) bu dövlәtin ərazisi şәrqdә Hind çayına, qәrbdә isә Misirә vә Egey dәnizinә qәdәr uzanırdı.

E.ә. 334-331-ci illәrdә Əhәmәnilәr imperiyası Makedoniyalı İsgәndәr tәrәfindәn işğal edildi. **Ərmәn (Ermәnistan)** canişinliyi hәmin imperiyanın tәrkibinә qatıldı. Mәlum olduğu kimi, e.ә. 323-cü ildә Makedoniyalı İsgәndәrin vәfatından sonra onun imperiyası süquta uğradı. E.ә. 312-ci ildә **Ermәnistan** da daxil olmaqla, Kiçik Asiyada hakimiyyәt İsgәndәrin sәrkәrdәsi I Selevkә keçdi. Onun dövlәti Selevkilәr adlandırılırdı. Selevk çarı III Antiox (e.ә. 242-187-ci illәr) e.ә. 201-ci ildә öz sәrkәrdәsi Artaşı (qәdim yunanca Artaşes) **Ərmәn** vilayәtinә başçı tәyin etdi. Artaşın әsli Kiçik Midiyadan, yәni Cәnubi Azәrbaycandan idi. V әsrin ermәni tarixçisi Moisey Xorenli bu barәdә öz әsәrlәrindә yazmışdır. E.ә. 189-cu ildә Artaş III Antioxa qarşı üsyan qaldırır vә özünü müstәqil hökmdar elan edir. Artaş Selevk әyalәtlәri olan İberiya, Qafqaz Albaniyası vә Atropatenanı әlә keçirәrәk, böyük әrazini әhatә edәn çoxmillәtli ittifaq yaratmağa nail oldu. Lakin e.ә. 160-cı ildә onun ölümü ilә bu ittifaqa son qoyuldu. Zәbt edilmiş vilayәtlәr yenidәn Selevk dövlәtinin tәrkibinә daxil oldu vә e.ә. 64-cü ildә Roma imperiyasının işğal etdiyi bu dövlәt süquta uğradı.

İndiki Ermәnistan әrazisindә qayalar üzәrindә tapılmış urartu dilindә olan mixi yazılarda bu diyara edilәn çoxsaylı soyğunçu yürüşlәrә dair mәlumatlar var. Bu mәnbәdә 40-a qәdәr talan olunmuş yaşayış mәntәqәsinin adı çәkilir. Bu adlardan görünür ki, hәmin yaşayış mәntәqәlәrinin heç birindә ermәnidilli әhali yaşamayıb. **Ermәni tarixçilәrinin dә etiraf etdiyi kimi, bu yaşayış mәntәqәlәrinin adları türk dilindәdir. Bu o demәkdir**

**ki, burada türkdilli əhali - ən qədim azərbaycanlılar yaşayıb.**

Təkzibedilməz faktdır ki, Artaş istisnasız olaraq müasir hay-ermənilərin əcdadlarının başçısı olmamışdır. Halbuki bəzi erməni tarixçiləri heç bir dəlilə əsaslanmadan bunu belə sayırlar. Artaşın Böyük Ermənistan ərazisində işğalçı müharibə aparan ordusu ancaq Şərqi Anadolunun vilayətləri **Hayas** və **Ərməndən** toplanmış əsgərlərdən təşkil oluna bilməzdi. Bu ərazilərdə qədim zamanlardan Balkan yarımadasından köçmüş hayların törəmələri ilə yanaşı, çoxsaylı avtoxton etnoslar **(het, hurri, urartu)**, həmçinin e.ə. XII-VII əsrlərdə Cənub-şərqi Avropadan gəlmiş və burada məskunlaşmış türkdilli **kimmer, skif, sak** tayfaları və başqaları da yaşayırdı.

"Böyük Qafqaz", "Kiçik Qafqaz", "Böyük Orda" və başqa bu kimi tarixi-coğrafi adlar mövcuddur. Buna bənzər coğrafi adlar bizə qədim xalqların yazılı mənbələri və xəritələrindən məlumdur. Rus tarixçiləri yunancadan tərcümələr edərkən, məsələn, "Böyük Qafqaz" əvəzinə "Ulu Qafqaz" yazsaydılar, bir o qədər də kobud səhvə yol verməzdilər, yalnız əsl mənadan bir qədər uzaqlaşmış olardılar. "Böyük Ermənistan" sözü əvvəllər heç bir siyasi məna daşımırdı. Bu, ancaq qədim tarixçilərin dilində coğrafi ərazinin adı idi. Yunan dilindən tərcümədə "Bolşaya Armeniya" yazmaq daha düzgün olardı. Beləliklə, dəqiqləşdirək — qədim yunanlar (Ksenofont, "Anabazis") Tuşpa (Van) gölü ətrafı ərazini "Böyük Ermənistan" adlandırırdılar. Ərazini! Məlumdur ki, Fərat çayının yaxınlığındakı Het dövlətinin yerləşdiyi ərazilərə elə həmin yunanlar "Kiçik Ermənistan" deyirdilər.

Təbiidir ki, vaxt ötdükcə yuxarıda adlarını çəkdiyimiz ərazilərdə yaşayan iri tayfalardan biri başqa xalqlar tərəfindən "ermənilər" adlandırılmışdı. Eyni ilə Amerika qitəsinə köçən ingilislər, irlandlar, fransızlar, almanlar, hollandlar, ispanlar və digər xalqlar da sonralar bütün dünyada "amerikalı" kimi tanındılar. Ermənilərin özlərinin bu adı etnonim kimi qəbul etməmələri və inadla "hay" etnonimindən ayrılmaq istəməmələrinin əsas səbəbinə gəldikdə isə, yaranmış vəziyyət göstərir ki, hay xalqının bu ərazilərdə köklü, qədim əlaqələri olmamış və bu tayfa nə vaxtsa Balkan yarımadasından köçərək bu torpaqlarda məskunlaşmışdır. İndi bu azsaylı xalq, həqiqətən də həmin ərazilərin qədim əhalisi olan başqa xalqları vicdansızcasına sıxışdırıb çıxararaq onların torpaqlarına yiyələnməyə çalışır. Bunu nəyin bahasına olursa-olsun, hər vəchlə fərqlənmək arzusu, başqa millətlərə özlərini daha yüksək istedada, bacarığa, ağıla malik xalq kimi təqdim etmələri, özlərini digər millətlərə qarşı qoymaq kimi bütün dünyaya məlum olan eybəcər hay millətçi xarakteri də təsdiq edir.

Xatırladaq ki, SSRİ dağılana qədər Ermənistan Respublikasını öz vətəndaşları rəsmi olaraq "Haykakan Sovetakan Sosialistakan Hanrapetutyun" adlandırırdılar. Qeyri-rəsmi olaraq isə "Hayastan" idi. Bu isə belə qənaətə gəlməyə imkan verir ki, bu gün Azərbaycanın tarixi-etnik torpaqlarında və dünyanın müxtəlif ölkələrində yaşayan bu xalq inadla "erməni", "ermənilər" sözünü düzgün saymır və öz adı kimi qəbul etmir.

**Hay xalqı heç zaman bu regionda əhalinin çoxluğunu təşkil etməmişdir. Təkrar edirik ki, Ermənistan yaylası və bütün Şərqi Anadolunun yerli əhalisi orada qədimlərdən yaşamış hetlər, hurrilər, urartulular və türklərin əcdadları sayıla bilər.**

1897-ci ildə Fransa Xarici İşlər Nazirliyinin çap etdirdiyi bir sənəddə deyilirdi: ***"Müxtəlif tayfaların necə məskunlaşmasının dərin tədqiqi Osmanlı imperiyası-***

***nın heç bir vilayətində erməni əhalisinin əksəriyyət təşkil etməməsi faktının doğruluğuna şübhə yeri qoymur".*** Həmin sənəddə həmçinin Fransanın İstanbuldakı səfiri Kamborun öz ölkəsinin Fransa xarici işlər naziri Qanatoya məktubundan sətirlər də gətirilir. Səfir yazır: ***"Müstəqil Ermənistan haqqında düşünməyə belə dəyməz. Əgər hansısa ağlagəlməz şərait nəticəsində Avropa Ermənistan yaratmaq təklifini irəli sürsəydi belə, bu yeni dövlətin sərhədlərini təyin etməyin özü də qeyri-mümkün iş olardı".***

Ermənistanın, üzdəniraq "erməni məsələsi" regional tarixinin və "erməni terroru" tarixinin tədqiqatçısı Erix Fayql özünün "Un Muthe De La Terreur" əsərində bunu belə təsdiqləyir: ***"Özlərinin bütün çətin tarixi boyu Şərqi Anadolu ərazilərindəki erməni icmaları heç zaman satraplıqdan və yarımmüstəqil knyazlıqdan yuxarı qalxa bilməmişlər".***

**Biz azərbaycanlılar bu faktları kin-küdurətlə hallandırmaq fikrindən uzağıq. Axı, söhbət öz xalqının beynini yalan və böhtanla, tarixi təhrif etməklə çəfəng millətçilik ideyası ilə zəhərləyərək, onu qonşu xalqlarla düşmən edən millətçi ekstremistlərdən yox, sadə, zəhmətkeş erməni xalqından gedir. Erməni diasporlarının millətçi liderləri erməni xalqının düçar edildiyi ağır sosial vəziyyətdən yararlanaraq, öz mənafeləri naminə sadə, zəhmətkeş insanları siyasi-millətçi davanın uçurumuna yuvarlamaqdan çəkinmir, *xalqın milli mentalitetini*, onun temperamentini və ağır həyati problemlərdən doğan kütləvi narazılığını quruculuğa yox, başqa millətlərin həyat və taleyinin də özlərininki kimi dağıdılmasına istiqamətləndirirlər.**



## IV

Şərqi Anadolunun geosiyasi vəziyyəti bu ərazilərdə yaşayan tayfa və xalqların, o cümlədən hay xalqının da taleyini özünəməxsus şəkildə müəyyənləşdirmişdi. Hələ ən qədim zamanlardan etibarən Kiçik Asiya və Zaqafqaziyadan çox mühüm ticarət yolları keçirdi. Qafqazla Şərqin istehlak bazarları uğrunda hegemonluğu ələ keçirmək üçün xüsusilə e.ə.I əsrdən başlayaraq, İranla Roma, eləcə də Yunanıstan, sonra isə Bizans arasında arasıkəsilməyən müharibələr gedirdi. Daha sonra, eramızın XIV-XV əsrlərində, onilliklər boyu uzanan Osmanlı — İran müharibələri zamanı qarət və qırğından qurtulmaq üçün xristian-haylar Kiçik Asiyanı tərk etməyə məcbur olurdular.

Bizans imperiyasının yaranmasından sonra Şərqi Anadoluda yaşayan oturaq əhalinin, xüsusilə hay-ermənilərin vəziyyəti daha da pisləşdi. **Nəticədə hayların bir hissəsi qonşu ölkələrə, o cümlədən tarixi Azərbaycan torpaqları olan indiki Ermənistan və Qafqaz Albaniyası ərazilərinə köçməyə başladı.**

IV əsrin əvvəllərindən Roma imperatorları Diokletian və Böyük Konstantinin təşəbbüsü ilə Şərqi Anadolu tayfalarından bir çoxunun, o cümlədən erməni tayfalarının bütpərəstlikdən xristianlığa keçməsi başlandı. Artıq bu vaxta qədər Roma imperiyasının şərqində hay-ermənilər xristianlığı tədricən qəbul etməyə başlamışdılar, daha doğrusu, onları fəal din təbliğçiləri xristianlığa cəlb edirdilər ki, bunlar arasında ilk növbədə pars mənşəli Qriqori Parsevin (Maarifçi) adını çəkmək lazımdır. Xristianlıq teokratiya (yəni kilsə hakimiyyəti) formasında, heç şübhəsiz, haylar üçün sərfəli idi. Çünki erkən orta əsrlərdə siyasi və maddi maraqları əsas amilə çevirən teokratiya

ermənilərin kövrək özünəməxsusluğunu qoruyub saxlamağa və dirçəltməyə qadir idi. Teokratiya isə az qala bir-yolluq uyuduğu yerlərdə bu özünəməxsusluğu dirçəltmək yolunda misilsiz qabiliyyət göstərdi.

Öz ruhaniləri ilə sıx əlaqədə olan hay xalqı onların simasında milli özünüdərk və sosial-siyasi düşüncəsinin formalaşması yolunda ciddi addımlar atmağa başladı. Qəribə olsa da, bu prosesdə katalizator rolunu məhz Şərqi Anadoluda hegemonluq uğrunda çarpışan iri qonşu dövlətlər — Roma, Yunanıstan, Bizans, İran arasında gedən sonsuz müharibələr nəticəsində yaranan faciəli məqamlar (qarətlər, işğalçıların zorakılıqları) oynayırdı.

Qafqaz xalqlarının tədqiqatçısı, tanınmış tarixçi və publisist V. L. Veliçko ötən əsrin əvvəllərində ermənilik barədə ciddi bir həqiqəti çox dəqiq ifadə etmişdi. O yazırdı: ***"Yad dinli böyük və kiçik hökmdarlar qarşısında alçalmağın həqarəti ilə dolu erməni tarixinin sonrakı bütün axarı boyu erməni xalqının və dövlətinin dirçəlməsi ümidi güclə hiss olunan bir sızqı kimi keçir. Əlbəttə, bunu xalq kütləsi yox, əsasən ruhanilər, varlanmış tacirlər, zadəganlar, yaxud şah və sultanların kərəmini qazanan məliklər arzulayırdılar. Çox diqqətəlayiqdir ki, bu ümid məhz Rusiya əraziləri genişləndikcə, onun zəfər bayrağı Ön Asiyaya yaxınlaşdıqca artırdı".***

Hay-ermənilərin nisbətən sıx yaşadıqları Van gölü ətrafından və Ermənistan yaylasından kütləvi köçməsi prosesini eramızın XI əsrinə aid etmək olar. Məlumdur ki, XI əsrdə Krıma və Rusiyanın başqa torpaqlarına buradan xeyli sayda erməni əhalisi köçmüşdür. Belə köçlər can qurtarmaq üçün qaçmaqla "müqəddəs torpaq" axtarışı xarakteri daşıyırdı. **Bu köç fasiləsiz olaraq bütün sonrakı əsrlərdə davam etmişdir.**



Yavaş-yavaş hay-ermənilər quldarlıq dövləti olan Bizansın bütün əraziləri boyu, qərbdə Smirna və Konstantinopol kimi şəhərlərdən tutmuş Van gölünün cənub-qərbindəki barlı-bəhərli torpaqları olan Kilikiyaya qədər səpələndilər. Ermənilər haqqında alman səyyahı Alfred Körte özünün "Anadolu eskizləri"ndə sonralar belə yazacaqdı: ***"Bu zərbi-məsəl hər yerdə özünü doğruldur: bir yunan iki yəhudini aldadır, bir erməni isə iki yunanı".*** Hay-ermənilərin Bizans imperatorlarının saraylarında yüksək vəzifələr tutması da məlumdur. Beləliklə, artıq XI əsrdə Anadoluda erməni ticarət kapitalı və erməni zadəganlığının təşəkkülü üçün zəmin yaranmaqda idi.

Monqol-tatar qırğınlarından qurtulan ermənilər kütləvi şəkildə Krıma, Polşaya, Ukraynaya, Rusiyaya qaçmaqda davam edirlər. 1374-cü ildən onlar Lvovda, Kamenets-Podolskda məskunlaşmağa başlayırlar. Bu şəhərlərdə onların sayı ilbəil artır. Ermənilər Qərblə Şərq arasında ticarət vasitəçisi olduqlarını nümayiş etdirdilər.

Cənubi Qafqazda, Azərbaycan torpaqlarında, Şimali Qafqazda məskunlaşan ermənilərə gəldikdə isə onlar elə əvvəlcədən özləri üçün nə hörmət, nə də şöhrət qazana bilmişdilər. Qafqaz xalqlarının böyük tədqiqatçısı V.L.Veliçko XIX əsrin sonunda ermənilər barədə görün nə yazırdı: ***"Qafqazda sosial-iqtisadi məsələlərlə tayfa məsələləri üst-üstə düşür: burjuaziya, süstlüyü və laqeydliyi ilə erməni parazitizminə meydan açmış bir neçə Şərq dövlətinin timsalından göründüyü kimi, yerli əhali üçün sosial, dövlət üçün siyasi təhlükə yaradan ermənilərdən ibarətdir"*** (*V.L.Veliçko.* Qafqaz — rus işi və tayfalararası məsələlər. S.-Peterburq, 1904).

## V

"Erməni məsələsi" adlı siyasi termin bütün dünyanın şərqşünas tarixçilərinə və politoloqlarına yaxşı məlumdur. Onun əsas mahiyyəti bu gün müəyyən qədər unudulmuşdur, ya da məqsədyönlü şəkildə qəsdən xatırlanmır. Təkcə Qafqazın və Zaqafqaziyanın yox, həm də keçmiş çoxmillətli SSRİ vətəndaşlarının, milyonlarla insanın son dərəcə vacib maddi və mənəvi maraqlarından çıxış edərək bu "erməni məsələsi" adlı söz birləşməsinin arxasında nələrin dayandığına qısaca nəzər salmaq önəmlidir.

Bu terminlə ifadə edilmiş problem beynəlxalq səviyyədə ilk dəfə 1878-ci ildə San-Stefanoda (İstanbul yaxınlığında) ruslarla türklər arasında, sonra isə Rusiya — Türkiyə müharibəsində Osmanlı imperiyasının ağır məğlubiyyətini yekunlaşdıran Berlin konqresində Bismarkın sədrliyi ilə müzakirə olunmağa başladı. İlkin San-Stefano müqaviləsinin müddəalarından birində deyilirdi: ***"Türkiyə ermənilər yaşayan vilayətlərdə tezliklə həyat şəraitini yaxşılaşdırmaq və yerli əhəmiyyətə malik islahatları həyata keçirmək öhdəliyini götürür və ermənilərin təhlükəsizliyini kürd və çərkəzlərdən qoruyacağına zəmanət verir".***

Ermənilər ilk dəfə beynəlxalq sənəddə belə xatırlanırlar. Necə deyərlər, çətini işə başlamaqdır. Hesab etmək olar ki, türkiyəli ermənilərin Rusiyaya doğru sonrakı istiqamətlənməsinin əsasları məhz həmin andan etibarən müəyyənləşmişdir. Xatırladaq ki, Türkiyənin 1877-1878-ci illərdə həm Balkan cəbhəsində, həm də Türkiyə Kürdüstanındakı məğlubiyyəti XIX əsrin 70-ci illərində Balkan böhranının kulminasiyası idi. Yaradılan Bolqar çarlığı ərazisində bir neçə gün ərzində yarım milyona qədər dinc türk əhali kütləvi qırğına məruz qaldı. Bu, əsl



# La Guerre Sainte contre la Turquie

## Les Volontaires Arméniens

La guerre avec la Turquie est pour les Arméniens une guerre sainte, on dirait une nouvelle croisade. L'enthousiasme parmi les Arméniens est tel qu'il ne passe pas de jour sans que dans les rues de Kars, d'Alexandropol, d'Erivan, il n'y ait des manifestations avec des discours contre le séculaire ennemi et oppresseur des chrétiens; il y a tant d'étudiants et d'étudiantes qui s'enfuient de leurs maisons paternelles pour aller rejoindre les corps des volontaires arméniens, que cela prend la forme d'une épidémie.

Récemment, d'une école de commerce, à Alexandropol, sept étudiants de la classe supérieure se sont enfuis pour aller au front; l'un d'eux, un garçon de quinze ans, qu'on avait forcé de revenir,

*Erməni könüllüləri!*

*Türkiyə ilə müharibə ermənilər üçün müqəddəs müharibədir, bir növ yeni səlib yürüşüdür. Ermənilər arasında ruh yüksəkliyi o dərəcədədir ki, elə bir gün olmur Qars, Aleksandropol və İrəvan küçələrində uzun əsrlər boyu xristianların düşmənlərinə və zülmkarlarına qarşı nitqlər söylənilən nümayişlər keçirilməsin; bir çox tələbə oğlan və qızlar öz ata evlərindən qaçaraq könüllülər korpusuna qoşulurlar və bu, artıq epidemiya halını almışdır.*

*Bu yaxınlarda Aleksandropoldakı kommersiya məktəbinin yuxarı sinfində oxuyan 7 şagird cəbhəyə getmək üçün dərsdən qaçmışdır; onlardan birini, 15 yaşlı oğlanı qayıtmağa məcbur etmişlər.*

soyqırım idi. Bunu indi kim yada salır, buna görə kim kədərlənir? Bir milyondan artıq qaçqın türk Osmanlı imperiyasının bütün vilayətlərinə, o cümlədən türklərin, kürdlərin və ermənilərin də yaşadığı vilayətlərə səpələndi. Bu iki amil — dinc Balkan türklərinin soyqırımı və sağ qalmaq üçün oradan qaçmağa məcbur olmuş türk əhalisinin faciəsi 36 il sonra, 1914-1915-ci illərdə Birinci Dünya müharibəsi zamanı Şərqi Anadoluda baş vermiş hadisələrin kökündə duran əsas amillərdən idi. **O vaxt — 1914-cü ilin oktyabrında rus ordusu öz tərkibində olan 150 minlik nizami erməni qoşununun və Şərqi Anadolunun bütün erməni əhalisinin fəal yardımı ilə rus-türk cəbhəsində uğurlu hücum əməliyyatları keçirə bildi.**

Məlum olduğu kimi, 1878-ci ildə Berlin konqresi San-Stefano rus-türk müqaviləsinin yuxarıda adı çəkilən 16-cı maddəsini ləğv etdi, çünki konqres iştirakçısı olan böyük dövlətlər bəyan etdilər ki, Anadolunun heç bir hissəsində erməni əhalisi çoxluq təşkil etmədiyindən erməni xalqının muxtariyyəti haqqında söhbət belə gedə bilməz. Türkiyə ermənilərinin keçmiş patriarxı Xrimyanın başçılıq etdiyi nümayəndə heyəti vətənə, demək olar ki, əliboş qayıtdı.

Bütün bu məsələlər Osmanlı imperiyasının erməni təbəələri arasında separatçılıq proseslərini sürətləndirdi. Erməni millətçi komitələrinin, mərkəzlərinin və onların liderlərinin Osmanlı imperiyasında erməni muxtariyyəti uğrunda fəal mübarizəsi məhz bu vaxtdan etibarən başlandı.

1877-1878-ci illərdə rus—türk müharibəsinin məşhur iştirakçısı general-feldmarşal İ.V.Qurkonun nəvəsi V.Qurko-Kryajin 1926-cı ildə özünün "Erməni məsələsi" məqaləsində yazırdı: ***"Separatçılıq hərəkatı Moskva***



***və Tiflisdəki ziyalılar tərəfindən xüsusilə dəstəklənməyə başladı. 70-ci illərdə "erməni liberalizminin" mərkəzinə çevrilmiş bu şəhərlərdə mətbu sözlə və şifahi surətdə Rusiya və Türkiyə ermənilərinin "milli özünüdərkinin oyanması", hətta davakar millətçilik təbliğatı aparılırdı".***

Osmanlı hay-ermənilərinin millət kimi konsolidasiyasında yalnız sadəcə azsaylı olmaları deyil, azlıqda qalmaları ciddi maneə idi — türklərə və kürdlərə nisbətdə onların sayı altıda biri təşkil edirdi. Həm də XIX əsrin sonunda Türkiyənin şərq vilayətlərində, o cümlədən Şərqi Anadoluda 850 minə yaxın hay-erməni, 3 milyon kürd və böyük əksəriyyətini Balkanlardan gəlmiş qaçqınlar təşkil edən 2 milyona qədər türk yaşayırdı. Bu rəqəmlər 1914-cü ildə Qafqaz cəbhəsində hərbi əməliyyatlar keçirməyə hazırlaşan rus ordusu Baş Qərargahının əlində olan rəsmi məlumatlarda göstərilirdi. Həmin rəqəmləri o zamankı türk—erməni münasibətlərini öyrənən çoxsaylı tarixçi və tədqiqatçılar, — J. Malevil, L. Janet, S. Şou, C. Makkarti, K. Makkarti və başqaları da öz araşdırmalarında təsdiq edirlər.

Burada xatırladaq ki, 1877-1878-ci illərin rus-türk müharibəsində Şərqi Anadoluda döyüşən rus hərbi hissələrinə milliyyətcə erməni olan general Loris-Məlikov komandanlıq edirdi. Rusların işğal etdiyi Türkiyə ərazilərində — Ərzurumda, Qarsda, Ərdəhanda, Bayazitdə, Bazarcıqda, Soğanlıda erməni əhalisi "qardaş" Rusiya ordusunu çox böyük hərarətlə qarşılayırdı. Bu kampaniyada erməni əsgərlərinin Osmanlı ordusundan kütləvi fərarilik halları baş alıb gedirdi. Onlar hərbi andı pozaraq ruslar tərəfə keçir, türklər yaşayan məntəqələri viran qoyurdular. **Beləliklə, müharibə başlanan zaman İstanbuldakı erməni patriarxı II Nerses**

**Vartapetyanın verdiyi sözün əksinə olaraq, erməni təbəələr öz vətənlərinə - Osmanlı imperiyasına xəyanət etdilər.** Həmçinin onu da xatırladaq ki, San-Stefano preleminar (ilkin) sülh müqaviləsinin bağlanması ərəfəsində erməni ruhanilərinin nümayəndələri Osmanlı hökumətindən gizli Ədirnədə ruslarla əlaqəyə girərək, Şərqi Anadoluda erməni əhalisinin statusu haqqında separat danışıqlar apardılar. Osmanlı imperiyasının türk əhalisi bunu ölümcül yaralanmış adamın kürəyinə saplanmış bıçaq zərbəsi, "olum-ölüm" məqamında ölkəyə qarşı açıq-aşkar törədilmiş xəyanətkar satqınlıq kimi qiymətləndirdi.

Yuxarıda sadalanan məsələlər və bunların ardınca baş verən hadisələr (davakar millətçi "Armenakan", "Qnçak", "Daşnaksütun" partiyalarının millətçi liderlərinin sonrakı hərəkətləri və 1896-cı ilin iyulunda ermənilərin Vanda qaldırdığı üsyan), 1915-ci ilin yazında erməni quldur dəstələrinin Vanın bütün müsəlman əhalisini kütləvi qətlə yetirməsi kimi faciənin ilkin soraqları və qanunauyğun səbəbləri idi.

Eləcə də xatırladaq ki, tezliklə 1877-1878-ci illərin rus-türk müharibəsinin qurtarmasından sonra rus ordusunun mümkün hücumlarının qarşısını almaq üçün sultan II Əbdülhəmidin əmri ilə Şərqi Anadoluda yalnız müsəlmanlardan ibarət "Həmidiyyə" nizamı sıravi korpusu yaradıldı. "Qana — qan", müharibənin bu qaçılmaz qanunu bütün gücü ilə işə düşmüşdü. Qədim türk-kürd əhalisi ilə Osmanlı imperiyasının şərq vilayətlərində yaşayan erməni əhalisi arasında onsuz da pis olan münasibətlər Birinci Dünya müharibəsi ərəfəsində son dərəcə kəskinləşmişdi.

Rusiyanın Ərzurumdakı baş konsulu general V. F. Mayevski (1893-1903) 1904-cü ildə N. N. Şavrovun "Zaqafqaziyada rus işinə yeni təhlükə" adı altında nəşr etdirdiyi topludakı qeydlərində belə yazırdı: ***"Erməni bandaları, adətən, talanlar və qırğınlar törədib aradan çıxırdılar. Onlar geri çəkilərkən əllərindəki silahla özlərini qoruyurdular, ancaq silahsız erməni kütləri bu silahlı qardaşlarının "qəhrəmanlığının" sonrakı haqq-hesabını öz qanları və mal-mülkləri ilə ödəməli olurdular... Gizli erməni təşkilatlarının fəaliyyəti gələcəkdə heç zaman və heç nə ilə əvəzi ödənilməyəcək külli miqdarda erməni qanı, göz yaşı və rifahı bahasına başa gəlmişdir. Və hələ gələcəkdə də bu "vətənpərvər" təşkilatların erməni xalqına daha nə qədər ziyan vuracağını heç kim müəyyənləşdirə bilməz".***



## VI

1914-cü ilin payızından başlayaraq Şərqi Anadoluda, Qafqaz cəbhəsində hadisələr necə cərəyan edirdi?

Alman şərqşünas-tarixçisi Erix Fayql özünün "Soyqırımı haqqında mif" kitabında yazır: ***"Erməni fanatikləri erməni müstəqilliyi barədə absurd, utopik və tamamilə eybəcər ambisiyaları öz icmalarının şüuruna yeritməyə çalışırdılar. Təkcə bir səbəbə — Osmanlı imperiyasının heç bir yerində ermənilər heç zaman çoxluq təşkil etmədiklərinə görə bu ambisiyaların həyata keçməyəcəyi şübhəsizdir. Ekstremistlər getdikcə quduzlaşırdılar, onlar öz məqsədləri naminə həm müsəlman, həm də erməni əhalisini fərqinə varmadan terrora məruz qoyurdular. Birinci Dünya müharibəsi başlanandan sonra isə onlar açıq-aşkar vətəndaş müharibəsi törətdilər".***



Délégation Nationale Arménienne

30 novembre 1918

K 311

Monsieur le Ministre,

J'ai l'honneur, au nom de la Délégation Nationale Arménienne, de soumettre à Votre Excellence la déclaration ci-dessous en lui rappelant:

Que les Arméniens, dès le début de la guerre, ont été des belligérants de facto, comme vous avez bien voulu le reconnaître vous-même, puisqu'au prix des sacrifices les plus lourds et des souffrances endurées pour leur attachement indébranlable à la cause de l'Entente, ils ont combattu aux côtés des alliés sur tous les fronts;

En France, par leurs volontaires enrôlés dès les premiers jours dans la Légion Etrangère, où ils se sont couverts de gloire sous le drapeau Français;

En Palestine et en Syrie, où les volontaires Arméniens, recrutés par la Délégation Nationale à la demande même du Gouvernement de la République, ont formé plus de la moitié du contingent français et ont pris une grande part à la victoire du Général Allenby, ainsi que ce dernier et leurs Chefs français l'ont officiellement déclaré;

Au Caucase où, sans parler des 150.000 Arméniens dans l'Armée Impériale Russe, plus de 40.000 de leurs volontaires ont contribué à la libération d'une partie des vilayets arméniens et où, sous le commandement de leurs Chefs Antranik et Nazarbekoff, ils ont seuls de tous les peuples du [illegible]

Son Excellence
Monsieur S. Pichon
Ministre des Affaires Etrangères
PARIS.

Veuillez agréer, Monsieur le Ministre, la nouvelle assurance de ma plus haute considération.

Le Président,

Boghos Nubar.



*Erməni Milli Nümayəndə Heyəti*
*30 noyabr 1918-ci il*

**K 311**

*Cənab Nazir,*

*Erməni milli nümayəndə heyəti adından Zati-alilərinizə təqdim etmək şərəfinə nail olduğum bu bəyannamədə, hər şeydən əvvəl, Sizin özünüzün də etiraf etdiyiniz kimi, ermənilərin müharibənin lap başlanğıcından de-fakto döyüşən tərəf olduğunu xatırlatmaq istəyirəm. Onlar öz müttəfiqləri ilə birlikdə bütün cəbhələrdə çiyin-çiyinə vuruşaraq, böyük qanlar bahasına Antanta işinə yenilməz sədaqət nümayiş etdiriblər.*

*— Fransada erməni könüllüləri müharibənin başlandığı ilk günlərdən Xarici legiona cəlb edilmiş və Fransa cəbhəsində şöhrət qazanmışlar;*

*— Fələstin və Suriyada milli nümayəndəlik tərəfindən yığılmış könüllü erməni dəstələri fransız kontingentinin yarıdan çoxunu təşkil etmiş, fransız komandirləri və özləri tərəfindən rəsmən bildirildiyi kimi, general Allenbinin qələbəsində böyük rol oynamışlar;*

*— Qafqazda Rusiya imperiyası ordusu tərkibində olan 150 min ermənidən təxminən 40 mindən artıq könüllü Andronik və Nazarbekovun başçılığı ilə erməni vilayətlərinin bir hissəsinin azad edilməsinə nail oldular. Bir çox xalqlar arasında təkcə onlar öz sarsılmazlıqlarını qoruya bildilər.*

*Xarici işlər naziri,*
*Zati-aliləri,*
*cənab S. Pişona*

*Paris*

*Cənab nazir, bir daha mənim böyük ehtiramlarımı qəbul edin.*

*Prezident Poqos Nubar*

Amerika tarixçiləri S.C.Şou və E.K.Şounun 1979-cu ildə Londonda nəşr olunmuş "Osmanlı imperiyasının tarixi" kitabından öyrənirik: ***"Rusiyanın hücuma başlayan Qafqaz ordusu çox böyük sayda erməni könüllülərini öz sıralarına qatır. Onlar mayın 14-də Vana çatdılar, sonrakı iki gün ərzində yerli müsəlman əhalisini kütləvi surətdə qırdılar. Vanda rusların himayəsinə sığınmış erməni dövləti yaradıldı. Ermənilər bütün ərazini müsəlman əhalisindən təmizləyəndən sonra şəhəri rus ordusunun üzünə açdılar. 18 may 1915-ci ildə rus çarı II Nikolay sədaqətə görə Vanın erməni əhalisinə təşəkkür elan etdi. Aram Manukyan Rusiyanın Vanda qubernatoru təyin olundu".***

Tarixçilər bu kitabın başqa bir səhifəsində yazırlar: ***"Özlərinin muxtar erməni vilayətini yaratmaq üçün erməni inqilabçılarının erməni azlığını müsəlmanları qırmaq vasitəsi ilə çoxluğa çevirməkdən başqa yolu qalmırdı. Onlar bu iş üçün əllərinə düşən hər fürsətdən, özü də rusların köməyi ilə yararlanırdılar. Rusların Ərzurumu almasından sonra bütün müharibə tarixində dinc əhalinin ən dəhşətli üsullarla qırılması və təhqir olunması baş verdi: bir milyondan artıq müsəlman kəndlisi yaşayış yerini tərk edib qaçmağa məcbur oldu. Ərzincana doğru geri çəkilən Osmanlı ordusu ilə birlikdə qaçmağa cəhd edən minlərlə müsəlman ermənilər tərəfindən vəhşicəsinə tikə-tikə doğrandı".***

1915-ci il aprelin 24-də Osmanlı imperiyasının daxili işlər naziri Tələt paşa İstanbula aşağıdakı sözlərlə başlanan teleqram göndərdi: ***"Müharibə dövründə Zeytunda, Bitlisdə, Sivasda və Vanda bu yaxınlarda baş vermiş üsyanlar bir daha təsdiq etdi ki, erməni komitələri özlərinin siyasi və inqilabi təşkilatları ilə hesablaşmadan Osmanlı imperiyası daxilində müstəqil idarəçiliyə nail olmaq istəyirlər. Müharibənin başlanmasından dərhal sonra Rusiyada ermənilərin səfərbərliyə alınması qərarı — bu zəif anda ermənilərin Osmanlı imperiyasına qarşı üsyanlara təhrik olunması üçün verilmiş qərar ölkəmizin mövcudluğuna və gələcəyinə təhlükə yaradan xəyanətdən başqa heç nə deyil".***



Osmanlı imperiyasında nəticə etibarilə iki milyon yarım kürdün və türkün həlak olmasına gətirib çıxarmış vətəndaş müharibəsini kimin başladığını birmənalı şəkildə sübut edən daha bir mühüm sənəd Fransanın Xarici İşlər Nazirliyinin arxivindən çıxır. 1919-cu ilin yanvar ayında keçirilən Paris sülh konfransında erməni nümayəndə heyətinin başçısı Poqos Nubar Fransanın xarici işlər naziri Stefan Pişona müraciətlə yazırdı: ***"Cənab nazir! Erməni milli nümayəndə heyəti adından Zati-alilərinizə təqdim etmək şərəfinə nail olduğum bu bəyannamədə, hər şeydən əvvəl, Sizin özünüzün də etiraf etdiyiniz kimi, ermənilərin müharibənin lap başlanğıcından döyüşən tərəf olduğunu xatırlatmaq istəyirəm. Onlar bütün cəbhələrdə müttəfiqlərin sıralarında vuruşub böyük qurbanlar verərək, Antantanın işinə yenilməz sədaqət nümayiş etdirmişlər"*** və s. və i.a.

Erix Fayql erməni-osmanlı vətəndaş müharibəsinin nəticələrinə özünün "Soyqırımı haqqında mif" kitabında belə qiymət verir: ***"Bu, tarixin faktıdır! Saysız-hesabsız günahsız qurbanların, o cümlədən həmin müharibədə həlak olmuş qadınların, uşaqların, qocaların qanı osmanlıların yox, yalnız və yalnız öz həmvətənlərini əvvəlcədən uduzulmuş bu döyüşə itələyən erməni milləti rəhbərlərinin boynundadır".***

Təkzibedilməz faktdır ki, hərbi əməliyyat bölgələrindən erməni əhalisinin deportasiya olunması haqqında fikir Osmanlı hökumətində ermənilərin türklərə qarşı Van-

da törətdikləri kütləvi qətllərdən sonra yarandı. Deportasiya məcburi akt idi.

Həmçinin, 1914-1920-ci illərdə Anadoluda gedən hərbi əməliyyatlar elə istiqamətdə aparılırdı ki, minlərlə erməni ailəsi imperiyanın cənub vilayətlərinə deportasiya olunmaq təhlükəsindən qurtulmaq üçün Rusiya Zaqafqaziyasına, gürcü torpaqlarına üz tuturdu. Onlar Bakıya və Dərbəndə, Suxumiyə, Soçiyə, Tuapseyə, Armavirə, indiki Krasnodara, Stavropola, Rostov-Dona qədər gedib çıxdılar.

Yuxarıda adı çəkilən Poqos Nubar Fransa hökumətinə verdiyi rəsmi məlumatda deportasiya olunmuş ümumi ermənilərin sayını 600-700 min nəfər göstərərək, 1914-1918-ci illərdə Türkiyədən Qafqaza 250 min, İrana 40 min, Suriya və Fələstinə 80 min, Mosul və Bağdada 20 min erməninin köçdüyünü bildirir və əlavə edirdi: ***"O ki, qaldı hələ iğtişaşlar zamanı qaçıb dağılışmış, deportasiya olunmuş əhalinin qalan hissəsinə, onlar haqqında əlimizdə heç bir məlumat yoxdur".***

Göründüyü kimi, az qala yüz il əvvəl Anadoludakı vətəndaş müharibəsində "həlak olmuş" ermənilər haqqında bugünkü məlumatlar millətçi erməni liderlərinin qafasında və fantaziyasında çox sadə üsulla ərsəyə gəlir. Elə həmin Erix Fayql istehza ilə qeyd edir: ***"Mən o nəticəyə gəldim ki, ermənilərə qarşı törədilmiş zorakılıq faktlarının əsaslandırılması sırf şərtidir, ancaq bu barədə şayiələr mənbə Türkiyədən uzaqlaşdıqca düz mütənasiblikla artır".***



## VII

Bu gün Avropa və Yeni Dünya dövlətlərinin parlamentlərində su bulandırmaqla, 1915-ci ildə türklərin ermənilərə qarşı soyqırımı haqqında kütləvi informasiya vasitələri ilə dünyaya car çəkməklə (ay haray!) "Armenakan", "Qnçaq" və "Daşnaksütun" funksionerlərinin mənəvi xələfləri — indiki "fəal" erməni liderləri daha bir məqsəd güdürlər. Məqsəd həqiqətin səsini boğmaqdır. Bu həqiqət isə ondan ibarətdir ki, uzaq illərdə məhz ermənilərin başçıları, millətçi liderləri erməni xalqının bədbəxtliklərində günahkardırlar, məhz onlar — "Armenakan", "Qnçaq" və "Daşnaksütun" təşkilatlarından olan ekstremistlər Şərqi Anadoluda 1915-ci ildə minlərlə həmvətənlərini qılınc, güllə qabağına verdilər, didərginliyə, aclığa, xəstəliklərə (qarın yatalağı, qanlı ishal, vəba) və başqa əzablara düçar etdilər. **Bu, 1915-ci ilin yayında və payızında, hərbi əməliyyatlar keçirilən bölgələrdən ermənilərin kütləvi şəkildə imperiyanın cənubuna köçürülməsi zamanı öz Türkiyə vətəninə xəyanətindən sonra, *Osmanlı ordusunun arxa cəbhəsində*, Anadolunun Zeytun, Bitlis, Sivas, Van və başqa şəhərlərində ermənilərin qaldırdığı üsyan və qiyamlar zamanı türk əhalisinin az qala sonuncu nəfərə qədər məhv edilməsindən, 1915-ci ilin yazında erməni yaraqlılarının "Van Erməni Respublikası" elan etməsindən sonra baş verdi.**

Artıq ermənilərin silahlı qiyamları, türk və kürdlərin bu qiyamlara qarşı cavab əməliyyatları bir tərəfində kürd və türklərin, digər tərəfində isə ermənilərin dayandığı qarşılıqlı nifrət və ədalət uçurumunu yaratmışdı. Hərbi əməliyyatlar nəticəsində ermənilərin Anadoludan cənuba köçürülməsi qaçılmaz idi və elə oldu ki, bu köçlər ermənilərin xəyanətindən, türk və kürdlərə qarşı son dərəcə qəddarlığından hiddətlənmiş əhali yaşayan rayonlardan keçdi.

Ermənilərin Anadoludakı döyüş dəstələrinə xaricdən rəhbərlik edən millətçi rəhbərlər faktiki olaraq Türkiyədəki öz ermənilərini - sıravi vətəndaşları da, imtiyazlı təbəqələrdən olan məmurları da, tacirləri də, ziyalıları da satdılar. Onlar əvvəlcə hələ 1882-1895-ci illərdə Osmanlı imperiyasında və Zaqafqaziyada erməni müstəqilliyinə aid sərsəm təbliğatla zavallı insanların şüurunu zəhərlədirlər, sonra isə mahiyyət etibarilə onları özlərinin murdar millətçi eqoizminə, milli təkəbbürünə və lovğalığına, avantürizminə, reallıqdan uzaq iddialarına qurban verdilər. Axı, kimdir bu tənbəlləşmiş osmanlılar? Biz ermənilərə isə Avropa, Rusiya kömək edəcək, rus çarı arxamızda dayanacaq. Daşnak komitəçiləri İngiltərədə, Fransada, Rusiyada, Tiflisdə otura-otura xəstə təxəyyül məhsulu kimi yaratdıqları xəyali "Böyük Ermənistan"da hakimiyyətə can atırdılar. Onların fikrincə, beş cəbhədə vuruşan "ölümcül xəstə"nin — Osmanlı imperiyasının canını tapşırması günü uzaq deyildi.

Erməni əhalisinin rifahı yenə də azad (normal həyatdan, rifahdan) Ermənistan Respublikasının təcavüzkar millətçi liderlərinin ambisiyalarına qurban verilmişdir. İndi Qarabağ erməniləri — qadınlar, uşaqlar, qocalar "Böyük Ermənistan" haqqında xəyalpərəstlər tərəfindən cızılan cinayətkar ekstremist planların girovuna çevrilmişlər. Onlar qurbanlardır. Eyni ilə dünənə qədər Bakını, Gəncəni, Sumqayıtı, Şəmkiri, Ağdamı, Xanları, Şəruru, Qəbələni, İsmayıllını, Şəkini, Şamaxını, Yevlaxı, Bərdəni, Kürdəmiri, Azərbaycanın digər şəhər və rayonlarını haqlı olaraq Vətən sayan (çoxları indi də sayır) yüz minlərlə Azərbaycan ermənisi də qurbandır. Onlar Azərbaycanda bu yaxınlaradək yaşayırdılar, çoxsaylı diasporları vardı, nə qədər ki, onların azərbaycanlılarla arasını vurmamışdılar, iki xalq qan düşməninə çevrilməmişdi (?), rifah içində ömür sürürdülər.



## VIII

Son illər millətçi erməni təbliğatının daha da fəallaşmasının və az qala bir əsrlik tarixi olan hadisələrin alver obyektinə çevrilməsinin çox vacib, eyni zamanda dünya ictimaiyyətindən gizlədilən bir aspekti də mövcuddur. Bu, biznesdir, daha doğrusu, minlərlə bulağın gözündən qaynaya-qaynaya əməlli-başlı çay yaradaraq erməni işi uğrunda "vuruşanların" şəxsi hesablarına axan puldur. Fərz edək ki, 1915-ci ildə Osmanlı imperiyasında erməni "soyqırımı"nı erməni təşkilatlarının pulu gücünə və Avropa parlamentlərindəki həyasız erməni lobbiçilərinin təzyiqi altında daha on-on beş dövlət tanıdı. Bir daha təkrar edək ki, 1914-cü ildə Birinci Dünya müharibəsinin başlanması ilə çoxsaylı erməni yaraqlı dəstəsi, döyüş təlimi keçmiş üzdəniraq "üsyançı və könüllü" dəstələr türk qoşunlarının arxa cəbhəsində vuruşurdular. Tərkibində Osmanlı ordusundan fərarilik etmiş minlərlə silahlı erməni daxil olan hissələr, eləcə də Qafqaz cəbhəsində rus ordusunun tərkibinə daxil olan 150 minlik nizami erməni qoşunu 3 ayda Ərzurumadək irəliləmişdi. **Bu silahlı ermənilər gələcək "Böyük Ermənistan"a ərazi tutmaq üçün Şərqi Anadolunun türk əhalisini qəddarcasına qırırdı. Süngüdən keçirilən, öldürülən türk və kürd əhalisinin — arxa cəbhədə müdafiəsiz qalaraq qətlə yetirilmiş qadınların, uşaqların, qocaların ümumi sayı iki milyon yarımı keçirdi.**

Tutaq ki, günlərin bir günü həmin illərdə ölmüş ermənilərin varisləri tərəfindən müasir Türkiyəyə milyardlarla dollarlıq dəyəri olan təzminat iddiası irəli sürüldü. Əlbəttə, absurddur, amma fərz edək ki, belə də ola bilər. Aydındır ki, ittiham edilən tərəf kimi bu prose-

sə cəlb edilmiş Türkiyə çox böyük çətinliklər bahasına yenidən sübut etməyə məcbur olacaq ki, 1914-1920-ci illərdə Osmanlı imperiyasının türkləri həmvətənləri ermənilərin xəyanətkarlığı üzündən daha çox ziyan çəkmişlər. Ermənilərin "soyqırımı" mifini ifşa etmək üçün faktlar və doğru sənədlər kifayət qədərdir. Erməni liderləri bunu gözəl bilirlər. Ancaq üzdəniraq "erməni-türk məsələsi" ətrafında istənilən səs-küy, istənilən çək-çevir onların biznesi üçün sərfəlidir. Türklərin arqumentlərini dəf edib, özlərinin saxta əks-arqumentlərini uydurmaqla onlar suyu daha çox bulandırmaq və oradan, yəni diasporlar və erməni cəmiyyətlərində aldadılmış həmvətənlərinin hesabına milyonlar qazanmaq imkanı əldə edirlər.

"Qəddar türklər"i cəzalandırmağın dənizdən-dənizə və Voronejə qədər "Böyük Ermənistan" yaradılmasının mümkünlüyü barədə qeyri-real ideyanı bütün dünyaya səpələnmiş sıravi ermənilərə təlqin edərək, onları "müqəddəs intiqam"a səsləyə-səsləyə, ürəklərindəki "nostalji" hisslərini tərpədə-tərpədə erməni millətçi liderləri alın təri ilə qazanılmış erməni pullarını "erməni işi uğrunda mübarizlərin" cibinə doldurmaq üçün özünəməxsus xortum rolunu oynayan erməni mərkəzləri, komitələri, ocaqları, cəmiyyətləri və assosiasiyaları vasitəsi ilə öz etnik qardaşlarının cibini utanıb-çəkinmədən hey silib-süpürürlər.

Söylədiklərimizin təsdiqi üçün "erməni məsələsi"ni kifayət qədər araşdırmış ötən əsrin məşhur etnoqrafı, politoloqu və ictimai xadimi İ. K. Kanadeyevin fikrinə istinad edək. O özünün 1902-ci ildə Peterburqda çap etdirdiyi "Zaqafqaziya həyatına dair oçerklər" kitabında belə yazırdı: ***"Bəzi istisnalar olmaqla, erməni təşkilatları özləri öz proqramlarının yararsızlığını hamıdan yaxşı***



***başa düşür və bu işin uğuruna inanmırlar, ancaq bu yöndə ona görə çalışırlar ki, bu fəaliyyətdən çörək qazanırlar. Onlar London Erməni Komitəsindən müavinət alırlar, başlıcası isə "erməni hərəkatı" üçün hədə-qorxu və şantaj vasitəsi ilə sadəlövh tacirlərdən pul qoparırlar".***

***Yüz il bundan əvvəl də belə idi, indi də bu minvalla davam edir.***

## IX

Beləliklə, "əzabkeş" vətənə yardıma, eləcə də "Böyük Ermənistan" yaratmaq kimi "müqəddəs işə" öz halal pullarını zorla, yaxud könüllü verən milyonlarla sıravi erməni, həmçinin Fransa, İngiltərə, Almaniya, ABŞ, Latın Amerikası ölkələrindəki və digər dövlətlərdəki erməni bankirləri, sənayeçiləri və tacirləri nəyi dəqiq bilməlidirlər? Bütün bu aldadılmış ermənilər anlamalıdırlar ki, ən qatı erməni fəallarına da (zəhmətlə qazanılmış erməni pullarını vergi kimi toplayanlara və o pulları sağa-sola xərcləyənlərə) gün kimi (iki yüz faiz) aydındır: 1915-ci ildə Osmanlı imperiyasında ermənilərə qarşı heç bir soyqırım törədilməmişdir. Lakin ermənilər tərəfindən satqınlıq, xəyanət olmuşdur. "Can verən" Türkiyənin arxa cəbhəsində daşnak rəhbərlərinin başladığı faciəvi vətəndaş müharibəsi olmuşdur; böyük hesabla onların xeyrinə qurtarmış, qurban kimi qırğına verdikləri minlərlə ermənininin qanı bahasına başa gəlmiş müharibə baş vermişdir. Onlara - erməni rəhbərlərinə bu da məlumdur ki, nə türklər, nə də azərbaycanlılar öz torpaqlarının bir qarışını da heç zaman İrəvan daşnaklarına verməyəcəklər. Bu, birmənalıdır. Ancaq nə qədər ki, Qərbdə, Rusiyada yaşayan əməkçi ermənilər məğmuncasına

özlərini belə soyğunçuluğa məruz qoyacaqlar, siyasət fırıldaqçıları onların milli-vətənpərvərlik hissləri üzərində parazitliyi davam etdirəcək, guya nə vaxtsa yarana biləcək "Böyük Ermənistan" xülyası ilə daim onların şüurunu zəhərləyəcək, yəni öz fırıldaqçı bizneslərini davam etdirəcəklər.

Vəziyyətin faciəsi bir də ondan ibarətdir ki, bu gün müstəqil Ermənistan Respublikasından canını götürüb Qərbə qaçmış heç bir erməni ailəsi tərk etdiyi torpağa — İrəvana, habelə xarici millətçi vətənpərvər rəhbərlərin öz soydaşları üçün yaratdıqları yarımdilənçi həyata qayıtmayacaq. Sonuncular çox nəhəng beynəlxalq, fırıldaqçı erməni biznesində öz rollarını oynayırlar. Onların vəzifəsi İrəvan, o cümlədən Qarabağ ermənilərinin tör-töküntüsünü girov saxlamaq, kənara buraxmamaqdır. Çünki Zaqafqaziyada hələlik ilişib-qalmış bu ermənilər, onların arxasınca iki milyonluq MDB ermənisi normal həyat axtarışında dünyanın başqa ölkələrinə üz tutsa, onların biznesinin qaynaqları əsaslı surətdə tükənə bilər.

1915-ci ildə türklərin ermənilərə qarşı mifik "soyqırımı" üzrə beynəlxalq səviyyədə fəaliyyət göstərən erməni millətçi-siyasi liderlərinin, Avropa parlamentlərində onların lobbiçilərinin və pulla alınmış kütləvi informasiya vasitələrinin getdikcə güclənən hay-küyünün daha bir səbəbi var. **Ermənilərin işğal etdikləri Azərbaycan rayonlarını — Ağdamı, Kəlbəcəri, Laçını, Füzulini, Qubadlını, Cəbrayılı, Zəngilanı və Dağlıq Qarabağı tərk edəcəkləri vaxt durmadan yaxınlaşır.** Biz "Azərbaycan rayonları" yazdıq. Amma daha bir faciəvi detal diqqəti çəkir. Bəli, Azərbaycanın xəritə üzərində belə rayonları var. Lakin o rayonlarda nə bir azərbaycanlı, nə də bir kürd yaşayır. Hətta bir slavyan ailəsi belə yoxdur. Bu rayonların yüz minlərlə



əhalisinin bir qismi erməni quldur dəstələri tərəfindən qətlə yetirilmiş, evlərindən qovulmuş, digər qismi isə respublikanın müxtəlif rayonlarında artıq neçə illərdir ki, çadır düşərgələrində, sərnişin, yük vaqonlarında, keçmiş istirahət evlərində, sanatoriyalarda, pansionatlarda və s. yerlərdə acınacaqlı məişət şəraitində yaşamağa məcbur edilmişdir. Bu insanlar artıq neçə illərdir ki, hər cür iş-gücdən, yaşayış vəsaitindən, tibbi xidmətdən məhrumdurlar, dövlət müavinəti ilə birtəhər dolanırlar. Onların övladları məktəbə getmirlər, normal uşaq həyatına həsrətdirlər. **Bir milyondan artıq azərbaycanlı qaçqın! Bütün bunlar özünün qədim mədəniyyətə və sivilizasiyaya, 1700 illik xristian mədəniyyətinə mənsubluğunu dünyaya car çəkən həmin Ermənistanın günahıdır.**

İşğal olunmuş Azərbaycan torpaqlarındakı minlərlə kənd, qəsəbə, şəhər yerlə-yeksan edilmişdir, oralarda hətta salamat bir ev də qalmamışdır. Hər şey dağıdılmış, qarət edilmişdir. Hər şey! Azərbaycanlı həyətlərindən evlərin tiri, dirəkləri, çatmaları, pəncərə-qapıları, darvazaları, döşəmə taxtaları, hətta çəpər ağacları belə sökülüb Ermənistana aparılmışdır. Çox böyük ərazidə tarixdə görünməmiş vandalizm! Ölü zona! XX əsrin sonunda ermənilərin əli ilə yaranmış Zaqafqaziya Çernobılı! Bu azmış kimi, Qafan rayonunun Azərbaycana yaxın olan ərazisində atom elektrik stansiyasının tullantılarını basdırmaq üçün zibillik açmışlar. Erməni terrorçuları işğal olunmuş rayonlarda əsrlər boyu bitən ağacları vəhşicəsinə doğrayır, Basuçay qoruğundakı çinarları məhv edir, tərkibində narkotik maddə olan bitkilər yetişdirirlər. Erməni quldurları Qubadlıdakı molibden yataqlarından istifadə edərək ətraf mühiti radioaktiv maddələrlə çirkləndirirlər. Araz və Kür çayları vasitəsi ilə Xəzər dənizinə axıdılan həmin radioaktiv maddələr bu nadir sutu-

tara, onun canlı aləminə, xüsusilə də nərə balıqlarına ciddi ziyan vurur. Axı, Xəzər Ermənistana məxsus deyil!

**Avropa isə susur!**

Yüz il əvvəl erməni silahlı dəstələrinin taqətdən düşən Osmanlı imperiyasında, döyüşən vətənin arxa və ön cəbhələrində törətdikləri əməlləri təsəvvür etmək üçün bu gün Azərbaycan torpaqlarında onların törəmələrinin - müasir erməni terrorçularının vəhşiliklərinə nəzər salmaq kifayətdir. Məhz buna görə erməni millətçi liderləri əzabkeş erməni xalqının tarixi yaraları haqqında dil boğaza qoymadan, qışqıra-qışqıra, bağıra-bağıra yalanla, böhtanla dünya ictimaiyyətinin fikrini öz cinayətlərindən yayındırırlar. Onlar müruri-zaman arxayınlıqla, utanıb-çəkinmədən tarixi hadisələrin məğzini saxtalaşdırır, həqiqəti kölgələyir, işğal etdikləri Azərbaycan torpaqlarından çıxmağı hər vəchlə ləngidərək, orada törətdikləri cinayətləri dünyanın gözündən gizlətməyə çalışırlar. Çünki onda dünya Osmanlı imperiyasında vaxtilə baş vermiş "soyqırım" haqqında həqiqəti də onların sifarişli qəzet məqalələrindən, saxtalaşdırdıqları sənədlərdən deyil, həmin erməni qaniçənlərinin, müasir barbarların nəyə qadir olduqlarını, bugünkü Ermənistan Respublikasının əhalisinin həqiqi maraqlarına, problemlərinə və bədbəxtliklərinə qətiyyən dəxli olmayan erməni millətçi vandalizminin üslubunu öz gözləri ilə görmək imkanı qazanacaqdır.

**Azərbaycan ərazisinin 20 faizini insandan, yaşayış evlərindən təmizləyərək, viranəyə, xarabazarlığa çevirmək! Vaxtaşırı terror aktları, Xocalıdakı kimi soyqırımı törətmək, Sumqayıt faciəsi yaratmaq və s. — keçmişin ən qəddar istilaçıları belə bu gün qəbirdən baş qaldırsaydılar, əsl qarəti və quldurluğu erməni qəsbkarlarından, öz müasir davamçılarından öyrənərdilər.**



**Beləliklə, erməni millətçi liderləri Türkiyənin şərq vilayətləri, Azərbaycan Respublikasına məxsus torpaqlar və Gürcüstanın cənub rayonları hesabına yaradılacaq xəyali "Böyük Ermənistan" haqqında sərsəm planları ilə erməni xalqını həyasızcasına və inadla qızışdırmaqda davam edirlər.** Öz təcavüzkar niyyətlərini həyata keçirən erməni terrorçuları nəinki Dağlıq Qarabağı, habelə ona qonşu olan 7 Azərbaycan rayonunu da işğal etmişlər. Təkrar edirik, nəticədə respublikamızın çox böyük bir ərazisi ermənilərin tapdağı altında qalmışdır.

Hazırda Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll edilməsi problemi ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) məşğul olur. Bu təşkilata daxil olan dövlətlərin nümayəndələri ermənilərin işğal etdikləri əraziləri Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi kimi tanıyırlar. Lakin işə gələndə, bu beynəlxalq strukturun funksionerləri yerində sayır, obyektiv və ədalətli qərarlar qəbul etmirlər. Milyona yaxın həmyerlimiz əsrlər boyu yaşadığı doğma torpaqlarından zorla didərgin salınmışdır.

İşlərin bu məcrada davam etməsi Ermənistan—Azərbaycan münaqişəsinin tezliklə sülh yolu ilə həllinə heç cür imkan vermir. Son anda, problemin sülh yolu ilə həll edilməsi vasitələri tükəndikdə Azərbaycan qəti addımlar atmağa məcbur olacaq və erməni millətçi-terrorçuları tərəfindən zəbt edilmiş torpaqlarını özü azad edəcəkdir.

Lakin Rusiyanın qulağı dibində alovlanan daimi münaqişə ocağı kimə lazımdır?! Qafqazda daha bir müsəlman — xristian yanğını kimə lazımdır?!

**Gəlin dərindən düşünək, cənablar!**

Müəlliflərin yazılı icazəsi olmadan bu əsər bütövlükdə və ya hissə-hissə başqa dillərə tərcümə oluna, çap edilə, yaxud hər hansı vasitə ilə (elektron, fotosurət, yaxud digər informasiyasaxlama və toplama sistemləri ilə) istifadə edilə bilməz.

Əsərin bütün hüquqları müəlliflərə — **Cəlal Əlirza oğlu Əliyevə** və **Budaq Əbdüləli oğlu Budaqova** məxsusdur.

**CƏLAL ƏLİYEV, BUDAQ BUDAQOV**
TÜRKLƏR, AZƏRBAYCANLILAR, ERMƏNİLƏR:
TARİXİ HƏQİQƏTİN SOYQIRIMI

Rəssam *Nazim Rzaquliyev*
Texniki redaktor *Elmira Tağıyeva*

***Kitabda AzərTAc-ın materiallarından istifadə olunmuşdur.***

Çapa imzalanmışdır 05.05.2003. Kağız formatı 60x84 1/16. Şərti çap vərəqi 4,18. Uçot-nəşr vərəqi 3,95. Tirajı 20.000. Sifariş 1788.
Müqavilə qiyməti ilə.

"Azərbaycan" nəşriyyatının mətbəəsində çap edilmişdir.
370073 Bakı, Mətbuat prospekti, 529-cu məhəllə.